Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xalqımızı təbrik edirik!

52 (1202) 30 dekabr 2021 - 5 yanvar 2022

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"BİZ - BU TORPAQLARIN SAHİBLƏRİ BU TORPAQLARA QAYITMIŞIQ VƏ BUNDAN SONRA BİZ BU TORPAQLARDA ƏBƏDİ YAŞAYACAĞIQ"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Şuşa şəhərində - məşhur Cıdır düzündə çıxış edərkən deyib.

O, bildirib: Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu.

Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm. 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda – Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm. Bu iki tarix arasında bir canlı bağlantı var. Ölkə ərazisində və bölgədə gedən proseslərə biz, sadəcə olaraq, seyrçi deyildik. Biz bu prosesləri böyük dərəcədə idarə edirdik. Biz bölgə gündəliyini formalaşdırırdıq. İkinci Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra bizim gücümüz, nüfuzumuz, təsir dairəmiz daha da genişləndi.

Bu gün azad Qarabağda, Şuşada və Hadrutda olarkən mən, - əgər belə demək mümkündürsə, - öz ad günümü qeyd edirəm. Bu gün səhər Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak edirdim. Mən bilirdim və hesab edirəm Azərbaycan xalqı da bu seçimi dəstəkləyər ki, bu gün mən Prezident, Ali Baş Komandan kimi hərbçilərə, Müzəffər Azərbaycan Silahlı Qüvvələrinə öz təşəkkürümü bildirmək və onların qarşısında yeni vəzifələr qoymaq üçün hərbçilərlə birlikdə olmalı idim.

Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkib hissəsi olan Hadrutda - Xocavənd rayonunda ordu quruculuğunda aparılan işlərin yeni mərhələsinə qədəm qoyduq. Ondan sonra isə Şuşaya gəldim. Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada – Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm.

Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilməyib. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik. Bu il "Xarıbülbül" festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi. Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü inanırdı, bizi də inandırırdı. Bizə də onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

* * * * *

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib, burada hərbi hissənin açılışında iştirak ediblər.

Prezident, Ali Baş Komandan İlham Əliyev deyib:

- Son illər ərzində Azərbaycan ərazisində bir çox yerlərdə yeni hərbi hissələr, hərbi şəhərciklər salınmışdır. Onların böyük əksəriyyəti yeni inşa edilmiş hərbi hissələrdir. Bir hissəsi isə əsaslı təmir edilmiş hərbi hissələrdir. Biz bu sahəyə çox böyük diqqət yetirirdik, çünki hərbçilərin xidmət şəraiti elə olmalıdır ki, onlar istənilən vəzifəni icra edə bilsin, hazırlıq üçün, məşq üçün yaxşı şərait olsun.

Bu hərbi hissənin açılması çox böyük əhəmiyyət daşıyır. Çünki bu hərbi hissə işğaldan azad edilmiş ərazidə - Xocavənd rayonunda açılır və ordumuzun sərəncamına verilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi. Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim Fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcəkdir. Yəni, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın müzəffər Ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır.

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. İlk növbədə ona görə ki, bu strateji qəsəbəni işğaldan azad etmək bizim gələcək planlarımıza əlavə dəstək verdi. Çünki əgər biz Hadrutu işğalçılardan azad etməsəydik, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi. Təsadüfi deyil ki, işğaldan ilk azad edilmiş şəhər olan Cəbrayıldan sonra ikinci böyük yaşayış məntəqəsi Hadrut olmuşdur. Müzəffər Azərbaycan Ordusu ötən il oktyabrın 9-da bu qəsəbəni işğalçılardan azad etmişdir. Burada olan hər bir insan bu qəsəbəni əhatə edən dağları görərkən başa düşə bilər ki, bu, nə qədər böyük, çətin və şərəfli missiya idi. Çünki mənfur düşmən 30 il ərzində işğal altında olan bütün torpaqlarda güclü istehkamlar qurmuşdu, bir neçə xətdən ibarət müdafiə sədləri qurmuşdu. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təbii relyefi də düşmən üçün əlverişli idi. Çünki bu dağlarda, təpələrdə yerləşərək onlar böyük hərbi üstünlüyə malik idilər. Ona görə bizim hərbçilərimizin həm peşəkarlığı, fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi bu şərəfli Qələbəmizə nail olmaq üçün bizə imkan yaratdı.

Əminəm ki, Hadrut əməliyyatı müasir dünya müharibələri tarixində öz layiqli yerini tutacaq. Ermənistan hər vəchlə çalışırdı ki, Hadrutu öz nəzarəti altında saxlasın. Hətta Hadrut işğalçılardan azad ediləndən bir neçə gün sonra onlar özlərinə xas yalanlar yayaraq Hadrutun sanki onların əlində olması haqqında iftiralar uydururdular. Artıq müzəffər Azərbaycan Ordusu Hadrutda dövlət bayrağımızı qaldırmışdı. Hadrut və bütün ətraf yüksəkliklər bizim əlimizdə idi. Ermənistan öz ordusunun mənəvi-psixoloji vəziyyətini anlayaraq Hadrut haqqında yalanlar yayırdı. Onu da bildirməliyəm ki, Hadrut azad ediləndən sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət almışdır və onların özlərinin etirafına görə müharibə zamanı 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda isə bir nəfər də fərari olmamışdır. Bizim vətənpərvərlik ruhumuz, qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun azad edən xalqıq.

Bu gün Hadrut əməliyyatı haqqında və bütövlükdə İkinci Qarabağ müharibəsi haqqında danışarkən əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

* * * * *

Sonra Azərbaycan Respublikası Prezidentinin Komando Briqadasına döyüş bayrağının verilməsi haqqında təqdimatı oxunub. Təqdimatda deyilir:

"Əsgəri şərəf, şücaət və şöhrət rəmzi kimi hərbi hissənin hər bir hərbi qulluqçusuna Vətənə sədaqətlə xidmət etmək, öz qanını və canını belə əsirgəmədən onu mərdlik və bacarıqla müdafiə etmək, qoşunlara həvalə olunmuş xidməti döyüş tapşırıqlarını əzmlə yerinə yetirmək, doğma torpağın hər qarışını düşməndən qorumaq borcunu xatırlatmaq üçün təqdim olunur.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti,
Silahlı Qüvvələrin Ali Baş Komandanı.
Bakı şəhəri, 1 oktyabr 2021-ci il".

Müzəffər Ali Baş Komandan hərbi hissəyə döyüş bayrağını təqdim edib.

Ötən əsrin 20-ci ilindən Azərbaycan tarixinə şahidlik edən AZƏRTAC

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın yeni binası ilə tanış olub. Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov dövlətimizin başçısına binada yaradılan şəraitlə bağlı məlumat verib.

Bildirilib ki, səkkizguşəli ulduz formasında layihələndirilmiş binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderimizin, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, yerli və xarici mediaya müsahibələrini, Müzəffər Ali Baş Komandanımızın İkinci Qarabağ müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotostendlər yaradılıb, AZƏRTAC-ın müxtəlif dövrlərdə istifadə etdiyi texniki avadanlıqların nümunələrindən ibarət muzey təşkil olunub.

Qeyd edilib ki, ilk xəbəri 1920-ci il martın 2-də işıq üzü görən Agentlik Azərbaycan Xalq Cümhuriyyətində baş verən hadisələri, hökumətin gördüyü işləri cəmi 58 gün işıqlandıra bilib. Sovet dönəmində isə ictimai-siyasi hadisələrdən asılı olaraq, fərqli aqibətlə üzləşib, adı 7 dəfə dəyişikliyə məruz qalıb.

Ulu öndər Heydər Əliyevin respublikada hakimiyyətə ilk gəlişinə qədər, bir növ, arxa planda qalan AZƏRTAC məhz Ümummilli Liderin iradəsi, şəxsi nüfuzu və qayğısı hesabına keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında qabaqcıl yerə çıxıb. Yeni binanın muzey hissəsində nümayiş olunan eksponatlar bunu əyani şəkildə sübut edir. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən informasiya agentliyi AZƏRTAC olub. Texniki təchizata öz dövrünün ən müasir "T-100" teletaypını və İtaliyanın Olivetti şirkətinin kompüterlərini də əlavə etmək olar. Uzaq məsafələrə rəsmi sənədlərin – qərar, fərman və sərəncamların birbaşa ötürülməsinə imkan verən bu avadanlıqlarla ən çox təchiz olunan üç agentlikdən biri məhz AZƏRTAC idi. Müstəqillik illərində də ulu öndər Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a xüsusi qayğı ilə yanaşırdı. 1995-ci il martın 3-də Agentliyin yenidən təşkil edilməsi haqqında imzaladığı Fərmanla AZƏRTAC-a dövlət informasiya orqanı statusu verilir, büdcə vəsaiti ayrılır, beynəlxalq informasiya məkanına çıxmaq qarşıya əsas vəzifə kimi qoyulur. Məhz həmin dövrdən AZƏRTAC regional və beynəlxalq media qurumları ilə sıx əlaqələr qurmağa başlayır.

Bu strateji xətt dövlətimizin başçısı İlham Əliyevin hakimiyyəti dövründə də uğurla davam etdirilir. Hazırda Azərbaycan AZƏRTAC-ın timsalında Dünya Xəbər Agentlikləri Şurasının səsvermə hüququna malik 13 üzvündən biridir. AZƏRTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) vitse-prezident və İslam Ölkələri Xəbər Agentlikləri Təşkilatında (UNA) büro üzvüdür.

Hazırda 7 regional və beynəlxalq media təşkilatının üzvü olan AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), Press Association (Böyük Britaniya), DPA (Almaniya), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası) və digər nüfuzlu milli xəbər yayımçıları var. Agentlik 8 dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də beş dildə videoxəbərlər yayır. AZƏRTAC-ın xarici ölkələrdə 21 müxbir məntəqəsi fəaliyyət göstərir.

Ötən əsrin 20-ci ilindən Azərbaycan tarixinə şahidlik edən AZƏRTAC hazırda XXI əsrin salnaməsini yazmaqdadır. Yeni binada yaradılan hərtərəfli şərait agentliyin bütün yaradıcı və texniki resurslarını ölkənin uğurları, o cümlədən azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumatları bundan sonra da daha geniş coğrafiyada yaymağa səfərbər edəcəyinə əminlik yaradır.

"Azərsu": Azərbaycanda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasında Yaponiyanın rolu yüksəkdir

"Azərsu" ASC Azərbaycan və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nin məsləhətçisi və "Tokyo Engineering Consultants" şirkətinin nümayəndələri ilə görüş keçirilib.

"Azərsu"dan bildirilib ki, ASC-nin sədr müavini Etibar Məmmədov Azərbaycanda həyata keçirilən infrastruktur layihələrində Yaponiya hökumətinin və şirkətlərinin yaxından iştirak etdiyini deyib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin icrasında Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin rolunu yüksək qiymətləndirib.

Məsləhətçi şirkətin nümayəndəsi Naoto Toda "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində işlərin uğurla icra edildiyini vurğulayaraq, həyata keçirilən layihələrin əhalinin sosial rifahının və məişət şəraitini yaxşılaşdırdığını diqqətə çatdırıb: "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi" üzrə kredit sazişi bu ilin sonunda başa çatır, buna görə Azərbaycanı tərk edəcəyəm. 10 ildən artıq ölkənizdə çalışdım və "Azərsu" ASC ilə əməkdaşlıqdan çox məmnun qaldım".

Qeyd edək ki, Azərbaycan və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində 5 şəhər və rayon mərkəzində (Qusar, Xaçmaz, Xızı, Qobustan, Naftalan) su təchizatı və kanalizasiya sistemləri yenidən qurulub. Bu şəhərlərdə yeni su mənbələri yaradılıb, anbar kompleksləri, magistral xətlər, içməli və tullantı su şəbəkələri, kollektorlar və tullantı sutəmizləyici qurğular inşa edilib.

Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Füzuli-Hadrut avtomobil yolunun təməli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın cari il martın 16-da işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı qoyulub.

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlı olacaq. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edəcək. Hazırda avtomobil yolunda torpaq işləri icra olunur. Xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Artıq ilk 8 kilometr hissədə torpaq işləri və yol yatağının tikintisi 50 faiz icra olunub.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yerli şirkət "Azvirt" MMC birgə icra edir.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə sahibkarlara 248 milyon manatdan çox kredit verilib

İpoteka və Kredit Zəmanət Fondu fəaliyyət istiqamətlərinə uyğun olaraq kredit-zəmanət mexanizmi çərçivəsində ölkədə biznes mühitinin dəstəklənməsi, habelə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirləri davam etdirir.

Fonddan bildirilib ki, cari il ərzində zəmanət verilmiş kreditlərin orta məbləği 722 min manat, orta müddəti 32 ay təşkil edib. Ümumilikdə, bu günədək fondun zəmanəti ilə sahibkarlara müvəkkil banklar tərəfindən verilən kreditlərin məbləği 248 milyon manatı ötüb. Bu kreditlər vasitəsilə biznes layihələrinin maliyyələşməsi hesabına 3300-dən çox yeni iş yerinin açılmasına şərait yaradılıb. Zəmanət verilmiş kreditlər iqtisadiyyatın əksər sahələrini əhatə etməklə, əsas etibarilə qida sənayesi məhsullarının istehsalı, kənd təsərrüfatı, ticarət xidmətləri,

AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU

maşın və avadanlıq istehsalı, eləcə də digər sənaye məhsullarının istehsalı və emalı sahələrinə təqdim olunub. Sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması və ödəniş yükünün azaldılması məqsədilə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına fond tərəfindən 2019-2021-ci illərdə sahibkarlıq kreditlərinə hesablanmış faizlərə görə 21 milyon manat məbləğində subsidiyanın verilməsi təmin edilib.

Dövlət dəstəyi hesabına verilmiş subsidiyalar nəticəsində borcalanlara verilmiş sahibkarlıq kreditləri üzrə orta illik faiz dərəcəsi 6,5 faizədək azaldılıb. Fond tərəfindən 2022-ci ildə də sahibkarların banklardan manatla aldıqları kreditlər üzrə hesablanmış faizlərə görə fond tərəfindən subsidiya dəstəyinin tətbiqi davam etdiriləcək. Sahibkarların, o cümlədən müvəkkil bankların mexanizmdən rahat istifadəsinin təmin edilməsi və müraciətlərə baxılmasının sürətləndirilməsi məqsədilə kreditlər üzrə zəmanətlərin verilməsi prosesi "Elektron ipoteka və kredit zəmanət" sistemi çərçivəsində avtomatlaşdırılıb, zəmanətlə bağlı tələb olunan sənədlərin siyahısı optimallaşdırılıb. Ölkədə biznes mühitinin yaxşılaşdırılması dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən olduğundan, fond tərəfindən bu sahədə davamlı olaraq qanunvericiliyin təkmilləşdirilməsi, maliyyə resurslarının əlçatanlığının artırılması və digər dəstəkləyici mexanizmlərin tətbiq olunması istiqamətində müvafiq tədbirlər davam etdirilir.

"Mətanət A" şirkəti dünyanın nömrə bir texnologiyası olan Grenzebach texnologiyasına əsaslanan AĞDAĞ Natural Gipskarton Lövhələri Zavodunun təqdimatını keçirib

Ölkəmizin tikinti materiallarının qabaqcıl istehsalçılarından olan "Mətanət A" Şirkətlər Qrupunun AĞDAĞ Natural Gipskarton Lövhələri Zavodunun Alov Qüllələrində geniş təqdimatı keçirilib. Tədbirdə müxtəlif dövlət qurumları, biznes assosiasiyaları, inşaat şirkətlərinin rəhbər şəxsləri, eləcə də tikinti materiallarının satışı ilə məşğul olan fərdi sahibkarlar iştirak edib.

Öncə qonaqlar zavodu ziyarət edib və istehsal prosesi ilə tanış olublar. Zavodun direktoru Alim Bayramov qonaqlara məlumat verib ki, zavod qabaqcıl Grenzebach alman texnologiyasına əsaslanır, istehsal prosesi tam avtomatlaşdırılmış formada idarə olunur və keyfiyyətə nəzarət PLC xüsusi proqram təminatı ilə avtomatik həyata keçirilir. AĞDAĞ natural gipskarton lövhələrinin istehsalında spesifik kartondan istifadə edilir, son məhsul maksimum elastikliyə və yüksək müqavimətə malikdir. Məhsulun keyfiyyəti Almaniya bazarlarındakı bu tip məhsul ilə eyni keyfiyyətdədir. AĞDAĞ natural gipskarton lövhələrinin istifadəsi işin effektivliyinin artmasına və nəticədə tikinti xərclərinin azalmasına kömək edir.

Tədbirdə çıxış edən Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, millət vəkili, akademik Ziyad Səmədzadə "Mətanət A" Şirkətlər Qrupunun inşaat sektorunda daim innovasiyalarla fərqləndiyini, ölkəmizdəki sahibkarlıq fəaliyyətinin təşkilində xüsusi rolu olduğunu deyib. Bu gün yeni iqtisadi modellərin elm, innovasiya və istehsalın vəhdəti üzərində qurulduğunu və dövlət-özəl sektor tərəfdaşlığının mərkəzindəki bu üç faktorun önəmliliyini vurğulayıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov isə öz çıxışında yeni istehsal müəssisələrinin yaradılmasının sənayenin inkişafı, idxaldan aslılığın azaldılması və məşğulluğun təmin edilməsindəki önəmi barədə fikirlərini bölüşüb. Qeyd edib ki, Ağdağ Natural Gipskarton Lövhələri Zavodu da qeyri-neft sektorunun inkişafına öz töhfəsini verəcəkdir. Orxan Məmmədov bildirib ki, KOBİA tikinti xammal ehtiyatlarından səmərəli istifadə olunmaqla sahibkarlıq fəaliyyətinin qurulmasında və inkişaf etdirilməsində maraqlıdır. "Mətanət A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri, Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının rəhbəri Elxan Bəşirov qeyd edib ki: "Şirkət olaraq uğurumuzun təməlində duran əsas amillərdən biri də dövlət dəstəyinin olmasıdır.

"Mətanət A" Şirkətlər Qrupuna məxsus bir çox zavodlar dövlətin sahibkarlığın inkişafına dəstək proqramı çərçivəsində həyata keçirilib. Zavodlarımızın bir çoxunun açılışında cənab prezidentin iştirak etməsi bir daha şirkətimizə və bizim timsalımızda bütün sahibkarlıq subyektlərinə birbaşa qayğının əsas göstəricisidir. Milli iqtisadiyyatımızın inkişafına töhfə vermək isə fəaliyyətimizin təməl prinsipidir. İşğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşunun həyata keçirilməsi istiqamətində edilən çağırışlara "Mətanət A" Şirkətlər Qrupu da qoşulub və həmin ərazilərin iqtisadi və investisiya potensialının artırılması məqsədilə Qarabağda yeni zavodların tikilməsi planlanlaşdırılıb. Artıq bu barədə müvafiq dövlət qurumlarına müraciətlər edilib. Ərazilər müəyyən edildikdən sonra şirkət iki il ərzində iki yeni zavodun tikintisini başa çatdırmaq niyyətindədir. İnanırıq ki, ölkəmizin bütün bölgələrində uğurla davam edən iqtisadi inkişafa bu zavodlarımızda çalışacaq insanlar sayəsində Qarabağda da yeni-yeni uğurlar əlavə edəcəyik. Növbəti məhsulumuzun təqdimatını isə Qarabağda həyata keçirəcəyik!"

Tədbirdə çıxış edən Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov "Mətanət A" Şirkətlər Qrupunun istehsalda yaşıl texnologiyaların tətbiqi və ətraf mühitinin qorunmasındakı xüsusi tələbkarlığından bəhs edib.

Gələcəkdə bu tip texnologiyaların işğaldan azad edilmiş ərazilərdə tətbiqinin vacibliyini qeyd edən Vüqar Zeynalov şirkətlər qrupunun bu istiqamətdəki fəaliyyətində uğurlar arzu edib. Tədbirə Almaniyadan canlı bağlanan dünya miqyaslı Grenzebach Korporasiyasının vitse-prezidenti Christoph Habighorst Ağdağ Gipskarton Lövhələri Zavodunda tətbiq etdikləri ən son texnologiyadan danışıb və bu zavodun dünyada bu sahədə ən müasir zavodlardan biri olduğunu vurğulayıb. Bildirib ki, qarşılıqlı fəaliyyət zamanı "Mətanət A" Şirkətlər Qrupu daim istehlakçı məmnuniyyətini rəhbər tutaraq, keyfiyyətli məhsul istehsalına böyük önəm verib. Odur ki, zavodların tikilməsində ən son texnologiyaların tətbiqini ənənəyə çevirib.

Məhz bu siyasətin nəticəsidir ki, həmin zavodlarda istehsal edilən məhsullar Avropadakı məhsullarla eyni keyfiyyət göstəricilərinə malikdir.

Tədbirdə AĞDAĞ gipskarton lövhələrinin yeni istifadə sahəsi haqqında da geniş məlumat verilib. Belə ki, AĞDAĞ gipskarton lövhələrinin təkcə tavanlarda deyil, eyni zamanda evin daxili arakəsmələrinin yaradılmasında da geniş tətbiq imkanları var, daş yunu ilə birgə istifadə edildikdə isə yüksək səs və istilik izolyasiyası yaradan unikal məhsuldur.

Sonda "Mətanət A" Şirkətlər Qrupunun vitse-prezidenti Fuad Bəşirov inşaat şirkətlərini və ticarət nöqtələrini AĞDAĞ Gipskarton Lövhələri Zavodunun məhsulları sahəsində geniş əməkdaşlığa dəvət edib.

Böyük alim, unudulmaz müəllim

"Çörək itirən çörək də tapmaz" deyib atalarımız. Bu sözlər sanki vaxtilə çörəyimizi yeyib, sonra da tapdalamağa cəhd edən, bu gün isə aciz duruma düşən erməni vandalları üçün deyilib. Burada "çörək" sözü isə həm məcazi anlam daşıyır, həm də vaxtilə ermənilərin Ağdamda viran qoyduqları "Çörək Muzeyi"nə aiddir. Ötən əsrin 80-ci illərinin əvvəllərində Ağdamda yaradılmış "Çörək Muzeyi" dünyada bu tipli yeganə mədəniyyət abidəsi idi: muzeyin zəngin ədəbiyyat fondu vardı, burada dəyirman işləyirdi, üyüdülmüş undan buradaca təndirə yapılan milli çörəklər bişəndən sonra dequstasiya zalında muzeyə gələn qonaqların süfrəsini bəzəyirdi. Muzeyin yaradılmasında və təbliğində isə professor Əbülfəz Qasımovun dəyərli məsləhətləri olmuşdur. Yaşasaydı, yəqin ki, bu Qələbə onu da çox sevindirərdi. Hətta bu muzeyin yenidən yaradılması üçün ilk təşəbbüs göstərənlərdən biri məhz Əbülfəz Qasımov olardı.

Əbülfəz "Bərəkət" Cəbrayıl oğlu Qasımov 1931-ci ildə anadan olmuşdur. O, 1946-cı ildə Ordubad Pedaqoji Texnikumunu, 1953-cü ildə isə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun plan-iqtisad fakültəsini bitirmişdir. 1957-ci ildə Moskvada SSRİ Elmlər Akademiyasının İqtisad İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə etmiş və doğma Azərbaycana qayıdaraq Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. 1959-cu ildən əmək fəaliyyətini Bakı Ali Partiya məktəbində davam etdirən Əbülfəz Qasımov 1992-ci ilədək, yəni 33 il ərzində orada baş müəllim, dosent, professor, kafedra müdiri vəzifələrində çalışmışdır. O, 1972-ci ildə Azərbaycan EA İqtisadiyyat İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Əbülfəz Qasımov 1993-cü ildən ömrünün sonunadək (10 iyun 2008) həyatını Azərbaycan Dövlət İqtisad Universiteti ilə bağlamış, əvvəlcə professor, 1995-ci ildən isə "Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi" kafedrasının müdiri vəzifəsində əzmlə, böyük fədakarlıqla çalışmışdır.

Əbülfəz Qasımov yüksək vətəndaşlıq qayəsi ilə səciyələnən zəngin, mənalı və şərəfli ömür yolu keçmiş, dərin peşəkarlığı, tükənməz enerjisi və böyük zəhmətsevərliyi sayəsində görkəmli alim səviyyəsinə yüksəlmiş, iqtisad elminin zirvələrini fəth etmişdir. Onun elmi-tədqiqat işləri sahəsində 560 çap vərəqi həcmində monoqrafiya, kitab, dərslik və elmi məqalələri müxtəlif ölkələrdə və dillərdə çap olunmuşdur. Əbülfəz Qasımovun çoxcəhətli elmi fəaliyyətində respublika regionlarının sosial-iqtisadi inkişafının aktual problemlərinin tədqiqi mühüm yer tutur. O, Azərbaycan rayonlarının inkişafında müşahidə olunan bir sıra nöqsanların aradan qaldırılması, mövcud ehtiyatların səmərəli istifadə olunması üçün kompleks elmi təhlilin zəruriliyini elmi cəhətdən əsaslandırmış və sanballı töhfələr vermişdir. Əbülfəz Qasımovun elmi axtarışlarının bəhrəsi olan və müxtəlif illərdə çapdan çıxan "Heyvandarlığın iqtisadiyyatı", "Ərzaq proqramının aktual problemləri", "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "Demokratikləşmə - milli iqtisadiyyatımızın əsasıdır", "Milli iqtisadiyyatımızın aktual problemləri", "Azərbaycanın ərzaq təhlükəsizliyi", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri", "İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Bələdiyyələrə elmi-metodik kömək", "Qəbələdə regional siyasətin bəhrələri və inkişaf istiqamətləri" kimi elmi tədqiqat əsərləri, "Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər" adlı 2 cildlik ensiklopedik əsəri elmi ictimaiyyət tərəfindən böyük rəğbət və maraqla qarşılanmışdır. O, elmi kadrların hazırlanmasında əzmlə çalışırdı. Onun rəhbərliyi altında 22 elmlər namizədi və 4 elmlər doktoru yetişdirilmişdir. Əbülfəz Qasımov müdrik, özündən çox başqaları haqqında düşünən, mərd, səbirli, intizamlı, diqqətli, öz üzərində müntəzəm çalışan yüksək ziyalı kimi daima yeniliyə, həyatın tələbatına uyğun meyil göstərən, həmişə mütaliə edən böyük alim idi. Gənclərimizin yüksək peşəkar iqtisadçımütəxəssis kimi hazırlanması və formalaşmasında, vətəndaş kimi tərbiyə olunmasında danılmaz xidmətlər göstərmişdir. Əbülfəz müəllim 15 ildən çox bir müddətdə respublikamızın aparıcı təhsil ocaqlarından biri olan Azərbacan Dövlət İqtisad Universitetinin "Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi" kafedrasına rəhbərlik etmişdir. O, gözəl müəllim və tərbiyəçi idi. Qədim bir hind məsəlində deyilir: "Kim ki daim oxuyur, o, yaxşı yatır, özü özünün həkimi olur. Məqsəd uğrunda mübariz olmaq, insani kamilliyə yiyələnmək oxuyub öyrənməklə bağlıdır". Əbülfəz müəllim məhz belə yüksək insani keyfiyyətlərə malik idi. Müəllim öz tələbələrini sevməli və onların hər birinin şəxsiyyətinə hörmət etməlidir. Əbülfəz müəllim həmişə belə edərdi. O, həyat pillələrini addım-addım qalxaraq, onun zirvəsinə yüksələn, insani ləyaqətini hər şeydən uca tutan görkəmli iqtisadçı, ziyalı idi. Əbülfəz Qasımov respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edirdi. Bacarıqlı təşkilatçı, müasir mütərəqqi ideyaların daşıyıcısı və təbliğatçısı kimi ölkə ictimaiyyəti arasında böyük hörmət və rəğbət qazanmışdı. Professor Əbülfəz Qasımov bir neçə ixtisaslaşmış elmi və müdafiə şuralarının üzvü idi. Bir sıra beynəlxalq konfrans və simpoziumlarda iştirak etmiş, dərin məzmunlu məruzə və çıxışları ilə Azərbaycan iqtisad elminə yüksək nüfuz qazandırmışdır. Əbülfəz Qasımovu başqa iqtisadçı alimlərdən fərqləndirən əsas cəhət budur ki, o, milli iqtisadiyyatımızın aktual problemlərini tədqiq etməklə yanaşı, bədii-publisistik yaradıcılıq fəaliyyəti ilə də ardıcıl məşğul olurdu. "Əbülfəz Bərəkət" imzası çoxdan respublikamızda və onun hüdudlarından kənarda oxucuların dərin rəğbətini qazanmışdır. Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstərmiş Əbülfəz müəllim çörək mövzusunu bədii yaradıcılığının şah damarı hesab edərək, "Mənim çörəkli dünyam" kitabını yazmış və bu kitabın materialları əsasında Moskva, Bakı və Naxçıvanda filmlər çəkilmişdir. Onun milli-mənəvi dəyərlərimizi özündə əks etdirən, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirən "Anamın gəlinlik paltarı" adlı əsəri 2002-ci ildə Azərbaycan Dövlət Gənclər Teatrında, "Tufanda yanan çıraq" adlı pyesi isə 2003-cü ildə İrəvan Dövlət Teatrında səhnəyə qoyulmuş və tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Əbülfəz Qasımovun "Dəyirmana gedən yollar" bədii-publisistik oçerki dünya şöhrətli müğənni Lüdmila Zıkinanın müşayiəti ilə radiokom-pozisiya kimi vallara yazdırılaraq, "Russkiy yazık za rubejom" (Moskva) jurnalı redaksiyasının təşəbbüsü ilə dünyanın səksən ölkəsində səsləndirilmişdir. İndi həmin vallar əsasında bir sıra xarici ölkələrin məktəblərində şagirdlərə Azərbaycan xalqının adət-ənənələri, qonaqpərvərliyi, insanpərvərliyi barədə sinifdənkənar məşğələlər keçirilir. Həmin oçerk unudulmaz müğənnimiz Rəşid Behbudovun da ecazkar ifasının müşayiəti ilə səsləndirilmiş və rəğbətlə qarşılanmışdır.



Erməni qəsbkarları Qarabağı işğal edərkən "Çörək Muzeyi"nə tuşlanan düşmən mərmiləri vətənpərvər alimi sarsıtmış, hiddətləndirmiş və onun qəlbində baş qaldıran qəzəbli nidalar yeni bir povestin yazılmasına səbəb olmuşdur. İlk dəfə Azərbaycan radiosu ilə səsləndirilən, sonra isə respublika mətbuatının səhifələrində dərc edilən "Xan qızı Natəvan bəşəriyyəti haraylayır" adlı əsər böyük marağa səbəb olmuş, dinləyici və oxucular arasında geniş əks-səda doğurmuşdur. Əbülfəz "Bərəkət"in son vaxtlar oxuculara təqdim etdiyi "Sevən ürək, isti çörək" əsəri daha bir ağrılı mövzuya - 20 Yanvar hadisələrinə həsr edilmişdir. Əsərdə şəhidlərimizin nakam və saf məhəbbətindən, ülvi hisslərindən söhbət açılır, onların ruhu əzizlənir, xatirələri yad olunur. Ümumiyyətlə, Əbülfəz "Bərəkət"in əsərlərindəki məşəqqətli ziyalı həyatı, həkimlik peşəsinin müqəddəsliyi, jurnalist məharəti, acılı-şirinli tələbəlik illəri istər-istəməz oxucunu düşündürür, ülviləşdirir, mətinləşdirir. İlk sətirlərdən bu əsərlər oxucunu ovsunlayır, qoynuna alır və onların bəxş etdiyi mənəvi zənginlik, gözəllik dünyasının əxlaqi keyfiyyətləri qəlbə ömürlük hakim kəsilir. Professor Əbülfəz Qasımovun son əsəri - "İKİ LİDERİN SİYASİ PORTRETİ" ulu öndərimiz Heydər Əliyev və Respublika Prezidenti İlham Əliyevin titanik əmək fəaliyyətindən, qloballaşma dövründə dövlətçiliyimizin stabil inkişafı istiqamətində aparılan sosial-iqtisadi islahatlardan bəhs edir. Kitab geniş oxucu kütləsi üçün yazılmışdır. Professor Əbülfəz Qasımov belə hesab edirdi ki, istər riyaziyyat elmi olsun, istərsə də iqtisadiyyat - fərqi yoxdur, bədiiliyin, poeziyanın fövqünə qalxdıqca, oxucu zəkasına daha tez yol tapılır. Beləliklə, professor Əbülfəz Qasımovun iqtisadi təfəkkürü ilə bədii təfəkkürü arasında yaranmış vəhdət ona həm elmi axtarışlarında, həm də sənətdə böyük uğurlar qazandırmışdır.

Əbülfəz müəllim gözəl ailə başçısı idi. Onun iki oğlu - biri iqtisad elmləri doktoru, professor Natiq Qasımov və digəri tibb elmləri doktoru, professor İlqar Qasımov hazırda cəmiyyətdə böyük hörmət sahibi olan insanlardır. Əbülfəz Qasımovun elmi-pedoqoji və ictimai fəaliyyəti dövlət və hökumətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Ali Sovetinin fərmanı ilə respublikanın "Əməkdar təbliğatçısı", "Əməkdar elm xadimi" fəxri adlarına, "Qızıl qələm" mükafatına layiq görülmüş, 2001-ci ildə ulu öndərimiz Heydər Əlirza oğlu Əliyevin fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Görkəmli iqtisadçı-alim, elm fədaisi, gözəl pedaqoq, müdrik insan Əbülfəz "Bərəkət" Qasımovun xatirəsi Azərbaycan xalqının ziyalı, müəllim və tələbə ordusunun, onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

Akademik
Ziyad SƏMƏDZADƏ

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan və Prezident İlham Əliyevin yanvarın 14-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan I texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Prezident İlham Əliyev tərəfindən iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində təməli qoyulan tunel də daxil olmaqla yol boyu 7 tunelin tikintisi aparılır. Tunellər şərti olaraq T1A (3340 metr), T1 (314,9 metr), T2 (556,9 metr), T3 (680,3 metr), T4 (540,6 metr), T5 (454,8 metr) və T6 (446,3 metr) adlandırılıb.

Artıq uzunluğu 3 340 metr təşkil edən və şərti olaraq T1A adlandırılan tunel üzrə 350 metr qazma işləri görülüb. 556,9 metr uzunluğa malik T2 tuneli üzrə qazma işləri yekunlaşmaq üzrədir. 680,3 metr uzunluğa malik T3 tuneli üzrə tikinti işlərinə yeni start verilib.

Bundan başqa, 540,6 metr uzunluğa malik T4 tuneli, həmçinin 454,8 metr uzunluğa malik T5 tunelində sol və sağ hərəkət istiqaməti üzrə üst yarı hissəsində qazma işləri artıq tamamlanaraq tunel daxili hərəkət təmin olunub. Uzunluğu 446,3 metr olan T6 tuneli üzrə isə 130 metr qazma işləri aparılıb.

Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolundan ayrılan və məşhur "İsa bulağı"nadək inşa olunacaq yol üzərində 1335 metr uzunluğa malik tunel üzrə də tikinti işlərinə yeni başlanılıb. "İsa Bulağı" istiqamətində inşa edilən tunel də daxil olmaqla ümumilikdə layihə olunan tunellərin ümumi uzunluğu təqribən 7 668 metr təşkil edir. 314-3340 metr arası dəyişən tunellər bir hərəkət istiqaməti üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq.

Hazırda tunellərdə qazma, partlatma və qırıcı üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri görülür. Bundan başqa tunellərin hər birində tikinti işlərinin yerinə yetirilməsi üçün havalandırma sistemi quraşdırılır.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "23 N-li Yol İstismarı" MMC, "43 N-li Yol İstismarı" MMC, "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı" MMC və "7 nömrəli Magistral Yolların İstismarı" MMC ilə subpodratçı şirkətlər olaraq yol tikintisi sahəsində ixtisaslaşmış "Azvirt" MMC, həmçinin Türkiyənin "Kolin İnşaat Turizm Sənaye və Ticarət" və "Cengiz İnşaat Sənaye və Ticarət" şirkətləri birgə icra edir.

Sözügedən yol başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir.

Neft kapitalını insan kapitalına çevirən lider

Bakı Ali Neft Məktəbinin yaradılmasının 10 ili tamam olur

Düz 10 il əvvəl Azərbaycan təhsil məkanında yeni, tam fərqli və müasir tələblərə cavab verən bir ali məktəbin təməli qoyuldu. Bu ali təhsil ocağı inkişaf etdi, böyüdü, ölkənin iqtisadiyyatı və sənayesinə peşəkar, ingilisdilli, beynəlxalq səviyyəli mütəxəssislər bəxş etdi. Artıq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Fərmanı ilə yaradılmış Bakı Ali Neft Məktəbinin (BANM) 10 illik yubileyidir. Dövlət ali təhsil müəssisəsi statusunda SOCAR-ın strukturunda yaradılan Bakı Ali Neft Məktəbi bu 10 ildə böyük nailiyyətlərə imza atıb. Ötən 10 il ərzində BANM ölkənin ən nüfuzlu ali təhsil müəssisəsinə çevrilib, böyük etibar qazanaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin etimadını doğruldub, vəzifəsinin öhdəsindən layiqincə gəlməyi bacarıb.

Bakı Ali Neft Məktəbi 10 il əvvəl zamanın tələbi ilə yaradılmışdı. Azərbaycanda müasir tədris proqramları və təlim texnologiyaları əsasında ingilisdilli, yüksəkixtisaslı mühəndis kadrlar yetişdirən müəssisəyə ciddi ehtiyac var idi. Bu müəssisə fəaliyyətini genişləndirərək qlobal şirkətə çevrilən SOCAR-ın, həmçinin ölkənin digər sənaye müəssisələrinin peşəkar ingilisdilli mühəndis kadr ehtiyaclarını ödəməli idi. Sevindirici haldır ki, Bakı Ali Neft Məktəbi 10 il ərzində yaranma məqsədlərinə yüksək səviyyədə nail ola bilib. Bu gün Ali Məktəbin məzunları SOCAR-ın və ölkənin müxtəlif sənaye müəssisələrində, eyni zamanda transmilli şirkətlərdə çalışaraq iqtisadiyyatın, sənayenin inkişafına töhfələr verir, dünyanın nüfuzlu ali məktəbləri və nəhəng şirkətlərində Azərbaycanı layiqincə təmsil edirlər.

Bakı Ali Neft Məktəbi müasir tələblərə cavab verən təhsil infrastrukturu, tədris prosesinə yüksəkixtisaslı professor-müəllim heyətinin cəlb olunması, zəngin kitabxana-informasiya fondu, çoxfunksiyalı laboratoriyaları ilə fərqlənir. Bakı Ali Neft Məktəbinin kampusu Qafqaz regionunun zəngin maddi-texniki bazaya malik ən böyük kampuslarından biridir. Ali Məktəbimizin kampusunda SOCAR, ABB, "Avandsis Group", "Emerson Process Management", "Huawei" kimi nüfuzlu şirkətlərin dəstəyi ilə yaradılan laboratoriyalar, müasir standartlara cavab verən tələbə şəhərciyi, yeməkxana kompleksi, iki idman zalı və hovuz fəaliyyət göstərir. Bu kampusun açılışı 2017-ci il may ayının 1-də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən həyata keçirilib. Dövlət başçımız yeni kampusun açılışındakı çıxışında demişdir: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bakı Ali Neft Məktəbinin şəhərciyinin açılışını qeyd edirik. Bu şəhərcik ən yüksək standartlara cavab verir. Bakı Ali Neft Məktəbi artıq 6 ildir ki, fəaliyyət göstərir. Bu fəaliyyət çox uğurludur. Bu illər ərzində Ali Məktəb Azərbaycanın təhsil məkanında artıq öz layiqli yerini tuta bilibdir. Bu gün Ali Məktəb yeni şəhərciyə, yeni binaya köçür. Burada oxumaq, biliklərə yiyələnmək üçün bütün şərait yaradılıb, ən müasir texnologiyalar tətbiq olunur. Bütün binalar çox gözəl, zövqlə tikilib, burada ən müasir laboratoriyalar fəaliyyət göstərir və bu gün mənə təqdimat da edildi. Burada təhsilin səviyyəsi ən yüksək standartlara cavab verəcək".

Böyük qürur və fəxarətlə bildirirəm ki, Bakı Ali Neft Məktəbi ən müasir texnologiyalar və peşəkar pedaqoji heyətlə təmin edilmiş innovativ təhsil müəssisəsi olaraq inkişaf edib, yüksək nüfuz qazanıb. İlk gündən Azərbaycan ali təhsil müəssisələrinin reytinq cədvəlində öz liderliyini saxlayan, orta bal üzrə Respublika birincisi olan, ilk qəbul aparılan ildən Dövlət İmtahan Mərkəzinin (DİM) qəbul imtahanının nəticələrinə görə tərtib etdiyi reytinq cədvəlində 51 ali təhsil müəssisəsi arasında lider kimi tarixə düşən BANM 10 il ərzində ixtisaslarının sayını artırıb. 2012/2013-cü tədris ilində iki ixtisas - Neft-qaz mühəndisliyi və Kimya mühəndisliyi üzrə tələbə qəbulu həyata keçirən Bakı Ali Neft Məktəbi hazırda bu iki ixtisasla yanaşı, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi və Biznesin idarə edilməsi ixtisasları üzrə bakalavr, Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi və Biznesin idarə edilməsi (MBA) ixtisaslarında magistr pilləsi üzrə qəbul həyata keçirir. Ali Məktəbimizdə doktorantura (PhD) pilləsi, həmçinin Neft-qaz mühəndisliyi ixtisası üzrə təkrar ali təhsil almaq istəyənlər üçün də tədris aparılır. 2021/2022-ci tədris ili üçün Ali Məktəbimiz ilk dəfə II ixtisas qrupu üzrə də tələbə qəbulu keçirdi və böyük qürur hissi ilə vurğulayıram ki, bu ixtisas üzrə qəbul olunanların 11 nəfəri Prezident təqaüdünə layiq görülüb. Bu, Bakı Ali Neft Məktəbinin qazandığı nüfuzun, əldə etdiyi etibarın daha bir sübutudur (diaqram 1).



Bakı Ali Neft Məktəbi beynəlxalq səviyyəli tədris proqramı, yeni yaradıcı mühit və təhsilin yüksək keyfiyyəti, yerli və xarici şirkətlərlə əməkdaşlıq, peşəkar mütəxəssislər tərəfindən təlim və müzakirələrin təşkili və bu kimi digər nailiyyətləri ilə ölkə gənclərinin rəğbətini qazanıb. Bu rəğbətin nəticəsidir ki, ölkənin ən savadlı, intellektli, bacarıqlı gəncləri bizim Ali Məktəbi seçirlər. Ali Məktəbimizdə təhsil alan Prezident təqaüdçülərinin sayı ilbəil artır. Əgər 10 il öncə BANM-ə ilk qəbul həyata keçirilərkən Prezident təqaüdünə layiq görülən tələbələrimizin sayı 11 nəfər idisə, 2021/2022-ci tədris ilində isə Prezident təqaüdçülərimizin sayı 33 nəfərə yüksəlib. Onu da qeyd edim ki, ölkə üzrə Prezident təqaüdünə layiq görülən tələbələrin ümumi sayı 102 nəfər olub. Ölkə üzrə 102 Prezident təqaüdçüsündən üçdə birinin bir ali təhsil müəssisəsinin tələbəsi olması Azərbaycanın təhsil tarixində ilkdir. Bununla BANM rekorda imza atıb. Bu il də qəbul imtahanlarında ölkə üzrə ən yüksək bal toplamış tələbə BANM-i seçib. İlk dəfə qəbul apardığımız II ixtisas qrupu üzrə ən yüksək bal toplamış abituriyentin seçimi də Bakı Ali Neft Məktəbi olub. Hazırda Ali Məktəbimizin Prezident təqaüdçülərinin sayı 205 nəfərə çatıb. Bütün bunlar cəmi 10 illik tarixə malik ali təhsil müəssisəsi üçün böyük uğurdur.

PREZİDENT TƏQAÜDÇÜLƏRİNİN ALİ MƏKTƏBLƏR ÜZRƏ BÖLGÜSÜ (2021-Cİ İL)

1. Bakı Ali Neft Məktəbi	33
2. Azərbaycan Tibb Universiteti	25
3. Bakı Dövlət Universiteti	15
4. ADA Universiteti	12
5. Azərbaycan Dövlət İqtisad Universiteti	8
6. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	4
7. Azərbaycan-Fransız Universiteti - UFAZ	2
8. Xüsusi təyinatlı ali məktəblər	2
9. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1

Bakı Ali Neft Məktəbinə ortalama qəbul balı 650 və ondan yuxarıdır ki, bu da Azərbaycanda ən yüksək göstəricidir. Ali Məktəbimiz 700 bal toplamış tələbələrin sayına görə də fərqlənir. İndiyədək 700 bal toplamış 27 tələbənin seçimi Bakı Ali Neft Məktəbi olub.

Ali Məktəbimizdə tədris prosesi istehsalatla sıx əlaqədə həyata keçirilir. Tədris proqramlarının, nəzəri predmetlərin daha dərindən mənimsənilməsi məqsədilə tələbələr SOCAR-ın müvafiq profilli istehsalat müəssisələrində, eləcə də bp, Equinor, Total, Schlumberger, ABB, Halliburton, Atenau Ltd, Schneider Electric, Microsoft, Baker Hughes, Emerson Process Management, Avandsis Group, Maire Tecnimont, Nəzarət Ölçü Cihazları və Avtomatika MMC, SOCAR-ın Tükiyədəki Petkim Neft-Kimya Kompleksi və STAR Neft Emalı Zavodu kimi qurumlarda Yay və İstehsalat təcrübəsi keçir, hesabatlar hazırlayır və müdafiə edirlər. Bu amil tələbələrin sənayenin qabaqcıl mütəxəssisləri ilə effektiv münasibət qurmasına, beynəlxalq standartlara uyğun kadrlar kimi yetişməsinə, işlə təminatına və uğurlu karyeranın əsasını qoymağa böyük imkanlar yaradır.

Bakı Ali Neft Məktəbi cənab Prezidentin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" devizinin bariz nümunəsidir və bu devizə uyğun olaraq, tələbələrə yüksək keyfiyyətli təhsil verilməklə yanaşı, onların işlə təminatına da xüsusi əhəmiyyət verilir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2017-ci ildə Ali Məktəbdə ilk məzun buraxılışı keçirilən vaxtdan bugünədək bütün məzunlar işlə təmin olunublar. BANM bu xüsusiyyətinə görə ölkə ali məktəbləri arasında fərqlənir. Ali Məktəbimiz artıq 5-ci məzun buraxılışı keçirib. Bu gün Ali Məktəbimizin məzunları SOCAR və onun "Azneft" İB, "Azərikimya" İB, Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ), "SOCAR Ümid" və "SOCAR Polymer" şirkətləri, eləcə də "SOCAR Türkiyə"nin "Petkim" Neft-Kimya Kompleksi və STAR Neft Emalı Zavodunda çalışırlar. BANM məzunları təkcə SOCAR-da deyil, BP, "Schlumberger", "Halliburton", "Maire Tecnimont" və s. kimi iri transmilli şirkətlərdə də işə cəlb olunublar. Ötən 10 il ərzində Bakı Ali Neft Məktəbinin beynəlxalq standartlara cavab verən kadr hazırlığı, tələbələrinin peşəkarlıq səviyyəsinin yüksək olmasının nəticəsidir ki, bir çox tələbəmiz məzun olmadan iş təklifi alır. Bu isə Ali Məktəbin "Biz iş axtarmırıq, iş bizi axtarır" şüarını təsdiq edir. Hazırda əmək fəaliyyətinə başlamayan məzunlarımız isə Azərbaycanın, eləcə də dünyanın nüfuzlu universitetlərində magistratura və doktorantura pilləsində təhsillərini davam etdirirlər.

Bakı Ali Neft Məktəbi Azərbaycanın tam ingilisdilli yeganə texniki Ali Məktəbidir. Bakı Ali Neft Məktəbi ilk vaxtlardan beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verib. Ali Məktəbimiz ilk illərdən Böyük Britaniyanın Heriot-Vatt Universiteti ilə əməkdaşlığa başlayıb. 2012-ci il may ayının 26-da Heriot-Vatt Universiteti ilə birgə mütəxəssis hazırlığının təşkilinin əsas prinsiplərini özündə əks etdirən müqavilə, 2013-cü il yanvar ayının 31-də 2013-2017-ci illər ərzində iki ixtisas üzrə ikili diplom layihəsi çərçivəsində mütəxəssis hazırlığı üçün əməkdaşlıq haqqında razılaşma imzalanıb və uğurlu əməkdaşlığın əsası qoyulub. BANM beynəlxalq əməkdaşlığını artırmaqda davam edir, dünyanın bir çox nüfuzlu universitetləri ilə əməkdaşlıq edir, həmin universitetlərlə tələbə və müəllim mübadilə proqramlarını həyata keçirir. Birləşmiş Krallıq, Bolqarıstan, İsveçrə, Türkiyə, Estoniya, Polşa, Koreya, ABŞ, Norveç, Slovakiya, Fransa, Rusiya, Yunanıstan, İtaliya, Almaniya və bir çox başqa ölkələrin 50-dən artıq universitetləri ilə mütəxəssis hazırlığında əməkdaşlıq haqqında müqavilələr imzalanıb. BANM Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN), Avrasiya Universitetləri Birliyi (EURAS) və Dünya Neft Universitetləri Şəbəkəsinin (WEUN) üzvüdür. Son illər ərzində Ali Məktəb "Erasmus+" layihəsi çərçivəsində tələbələrini Yunanıstan, Bolqarıstan, İspaniya, Almaniya kimi ölkələrə təhsil almağa göndərib, həmçinin Rumıniyadan tələbələr qəbul edib.

2016-cı ildən BANM, bp və onun tərəfdaşlarının birgə əməkdaşlığı, həmçinin Böyük Britaniyanın "TwentyEighty Strategy Exercution" (STRATEX) şirkəti ilə birgə həyata keçirilən, ABŞ-ın Corc Vaşinqton Magistr sertifikatı ilə təmin edən təlim proqramı – Layihələrin İdarəedilməsi Məktəbi BANM və STRATEX şirkətinin birgə əməkdaşlığı ilə uğurla davam edir. 2021-ci ildə BANM, Böyük Britaniyanın "TwentyEighty Strategy Execution" (STRATEX) şirkəti və Dyuk Universiteti ilə birgə Layihələrin İdarəedilməsi Məktəbinin yeni mərhələsinə başlanılıb. BANM Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri içərisində ISO 9001 (Keyfiyyət idarəetmə sistemi), ISO 14001 (Ekologiya idarəetmə sistemləri), OHSAS 18001 (Əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemləri) və ISO 10002 (Müştəri məmnuniyyəti – şikayətlərin idarə edilməsi üzrə rəhbər göstərişlər) sertifikatlarını almış yeganə ali təhsil müəssisəsidir.

Bakı Ali Neft Məktəbi ötən müddət ərzində həm də ən müasir tələblərə cavab verən infrastruktur yarada, idarəetmə və pedaqoji heyəti formalaşdıra bilib, professor-müəllim heyətinin tədrisdə, tələbələrin isə təhsildə motivasiyalarını yüksəltmək üçün silsilə həvəsləndirici və səfərbəredici tədbirlər həyata keçirib.

Bakı Ali Neft Məktəbi yüksəkixtisaslı, ingilisdilli kadrlar yetişdirməklə yanaşı, layiqli vətəndaş hazırlamaq missiyasını da şərəflə, qürurla yerinə yetirir. Ali Məktəbimiz hədəf və məqsədlərinə uyğun olaraq, elm və təhsilin istehsalatla inteqrasiyasının təmin edilməsi, tələbələrin yaradıcılıq imkanlarının genişləndirilməsi, sosiallaşması, intellektual səviyyəsinin yüksəldilməsi, xüsusi istedadlıların müəyyən edilməsi, bilik və bacarıqlarının effektli reallaşdırılmasına təkan verməklə yanaşı, tələbə gənclərdə ölkəmizin qloballaşan dünyaya inteqrasiyası kontekstində milli-mənəvi dəyərlərin qorunması, dövlətçilik ideologiyasının təbliği, vətənpərvərlik hisslərinin gücləndirilməsi istiqamətində də fəal iş aparır. Ölkəmizin intellektual əsgərləri olaraq onlar Azərbaycanı dünyanın müxtəlif ölkələrində, beynəlxalq yarışlarda layiqincə təmsil edirlər. BANM tələbələri NASA-nın 2022-ci ildə keçirəcəyi «Human Exploration Rover Challenge» müsabiqəsində dünyanın müxtəlif orta və ali məktəblərindən 91 komanda arasında Azərbaycanı tarixində ilk dəfə olaraq təmsil etmək imkanı qazanıblar. BANM-in İnformasiya təhlükəsizliyi ixtisasında təhsil alan Hüseyn Qəmbərov «WorldSkills Asia» tərəfindən təşkil edilmiş beynəlxalq yarışda Azərbaycanı kibertəhlükəsizlik sahəsi üzrə təmsil edərək böyük uğura imza atıb. O, Azərbaycanın ilk dəfə qatıldığı bu nüfuzlu yarışda 26 ölkədən 122 nümayəndə arasında ümumi reytinqdə 707 bal ilə IV yeri qazanaraq Azərbaycanın adını Cənubi Koreya və Rusiyadan sonra 3-cü yerə yüksəldib "Məlumat sızmasının qarşısının alınması" kateqoriyası üzrə ən yüksək nəticə göstərib. Bütün bunlar həm Ali Məktəbimiz, həm də ölkəmiz adına böyük qürurdur.

Fəxrlə qeyd edirəm ki, 10 yaşını tamamlayan BANM ən yüksək nüfuzlu ali təhsil müəssisəsinə çevrilə bilib və Azərbaycanda peşəkar mühəndis kadrlarının hazırlanmasında liderdir. Ali Məktəbimiz əmək bazarında hər zaman tələb olunan ixtisaslarda tədris aparmaqla, yüksək peşəkarlığa malik kadr hazırlamaqla işəgötürənlərin ehtiyaclarını uğurla qarşılayır. İrəlidəki hədəflərimiz, məqsədlərimiz də böyükdür. Hədəflərimizdən biri də dünya reytinqinə daxil olmaq və ilk sıralarda yer almaqdır. Bu yolda irəliləyərkən bundan sonra da beynəlxalq səviyyəli, yüksək peşəkarlığa malik kadr hazırlamaq istiqamətində fəaliyyətimizi böyük səylə davam etdirəcək, ölkəmizə, xalqımıza faydalı intellektual əsgərlər yetişdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Elmar Qasımov,
Bakı Ali Neft Məktəbinin rektoru, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü

Rəqəmsal mühitin hüquqi tənzimlənməsi sisteminə dəyərli töhfə

Müasir dövrün simasını müəyyən edən səciyyəvi cəhətlərdən biri informasiya cəmiyyətinin formalaşması və rəqəmsal münasibətlərin inkişafıdır. Sivil bazar münasibətlərinin təşəkkülü get-gedə informasiya münasibətlərinin xarakterindən daha çox asılı olur.

Rəqəmsallaşmanın iqtisadi səmərəlilikdə rolu artır, genişlənən rəqəmsal fəaliyyət məkanı taleyüklü problemlərin poliqonuna çevrilir. Bu baxımdan informasiya münasibətlərinin inkişafının hüquqi tənzimlənməsi sahəsində səmərəli və məhsuldar tədqiqatçı, hüquq elmləri doktoru Rəşad Əzizovun "İnternet-məkanda hüquqi tənzimləmə: tarix, nəzəriyyə, komparativizm" adlı çapdan çıxmış monoqrafiyası təqdirəlayiq hadisə hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun monoqrafiyaya yazdığı ön söz rəqəmsal idarəetmənin perspektivlərinə və əsərin rəqəmsal idarəetməyə verəcəyi töhfəyə dair mühüm elmi-nəzəri fikirləri ilə diqqəti cəlb edir.

Rəqəmsallaşma idarəetmənin bütün səviyyələrdə yeni keyfiyyət səviyyəsinə qaldırılması üçün indiyə qədər misli görünməmiş yeni imkanlar açır. Əsərdə haqlı olaraq qeyd edilir ki, dinamik inkişaf edən milli iqtisadiyyata adekvat rəqəmsal mühitin formalaşdırılması və inkişafı məqsədilə Azərbaycanda strateji əhəmiyyətli və konseptual əsasları müəyyən edən bir neçə vacib sənəd, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair strateji yol xəritəsi hazırlanmışdır. Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2019-cu il tarixli sərəncamı və digər normativ aktların qəbulu işlərin yeni keyfiyyət səviyyəsinə qaldırılması üçün etibarlı hüquqi zəmin yaratmışdır. Müəllif haqlı olaraq bu sənədlər sırasına həmçinin dördüncü sənaye inqilabında ölkəmizin mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs" yaradılmasını vacib bir hadisə kimi qiymətləndirir.

Rəqəmsal münasibətlərin tənzimlənməsinin hüquqi bazasının inkişafı baxımından Azərbaycan Respublikası Prezidentinin ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruluğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədilə imzaladığı "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 27 aprel 2021-ci il tarixli fərmanı ötən illərdə bu sahədə aparılan uğurlu islahatların məntiqi davamı olmuşdur. Hazırda internet informasiya məkanında baş verən proseslər, onların insan həyatının bütün cəhətlərinə artan təsiri tənzimləməni, xüsusilə hüquqi tənzimləmə məsələlərini aktuallaşdırır. İnsanlar üçün dinamik və çevik bilik mənbələrindən birinə, bəzən hətta birincisinə çevrilmiş, ünsiyyət qurmaq, işgüzar fəallığı təmin etmək, dövlət idarəçiliyində iştirak baxımından əvəzedilməz məkan kimi internetin rolu artmaqda, arealı genişlənməkdədir.

Artıq internet-məkandakı fəaliyyətlərin tənzimlənməsinə yeni baxışın formalaşdırılması, hüquqi tənzimləmənin predmetinin və mexanizmlərinin yenidən qiymətləndirilməsi gündəliyə çıxır. Bu sahədə nəzəriyyəni qabaqlayan təcrübi dəyişikliklər hüquqi bazanın möhkəmləndirilməsində operativ reaksiyaları zəruri edir. Milli internet seqmentində dövlətin tənzimləmə imkanlarının hüdudları və imkanlarının qiymətləndirilməsi özü belə mürəkkəb işdir. Virtual məkanda sərhəd anlayışının yeni çalarlar kəsb etməsi milli qanunvericiliyin və beynəlxalq təcrübənin əlaqələndirilməsini xeyli dərəcədə çətinləşdirir. Hazırda müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar internetin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, müvafiq yeni mexanizmlərin hazırlanması istiqamətində fəal iş aparırlar. Bu zaman internetin tənzimlənməsinin aktual problemləri kimi haqqında danışılan məkanda yurisdiksiyanın müəyyən edilməsi, fərdi məlumatların saxlanması və mühafizəsi, domen adları sisteminin idarə edilməsi, habelə provayderlərin hüquqi məsuliyyətinin müəyyən edilməsi məsələləri ön plana çəkilir. Əlbəttə, rəqəmsal mühitdə fəaliyyətin kiber təhlükəsizliyinin təmin edilməsi, kibercinayətkarlıqla səmərəli mübarizə xüsusi diqqət mərkəzində olmalıdır.

Hüquq elmləri doktoru Rəşad Əzizovun monoqrafiyasının "İnternet-məkanda hüquqi tənzimləmənin nəzəri hüquqi problemləri" adlı birinci fəslində müasir informasiya cəmiyyəti internet-məkanın məzmun konteksti kimi nəzərdən keçirilmiş, internet-məkan anlayışına aydınlıq gətirilmiş, bu məkanın əhəmiyyətini şərtləndirən amillər xarakterizə olunmuşdur. Müəllif bu fəsildə həmçinin internet-məkanın hüquqi problemlərini dəqiqləşdirmiş, həmin məkanda hüquqi tənzimləmənin mövcud modellərini şərh etmişdir. Daha sonra internet-məkan sosial tənzimləmə sahəsi kimi nəzərdən keçirilmiş, fəslin sonunda internet-məkanda hüquqi tənzimləmənin təhlilinin sistemli metodoloji elementləri ümumiləşdirilmişdir.

Bir sözlə, uzunmüddətli və sistemli tədqiqatların məhsulu olan monoqrafiyada hər şeydən əvvəl internet informasiya məkanında hüquqi tənzimləmənin xüsusiyyətləri aşkar edilmişdir. Bu zaman araşdırılan problemlərin tarixi-nəzəri və müqayisəli-hüquqi aspektləri önə çəkilmişdir. Belə ki, "İnternet-məkanda hüquqi tənzimləmənin tarixi-hüquqi təhlili" adlı ikinci fəsildə ilk növbədə internetin formalaşması və inkişafı tarixi nəzərdən keçirilmiş, müşahidə edilən meyillərə müəllif mövqeyi bildirilmişdir. Müəllif sinxron və diaxron təhlilin müqayisəli-hüquqi metodlarını tətbiq etməklə, ilkin yanaşmada internet-məkanın hüquqi diasinxronizminin yeni elmi konsepsiyası elementlərini əsaslandırır.

İnternet-məkanda hüquqi tənzimləmənin müqayisəli-hüquqi təhlili məsələlərinə həsr olunmuş üçüncü fəsildə sinxron müqayisəli-hüquqi tədqiqatda internet-məkanda hüquqi tənzimləmənin mahiyyət və məzmununun sistemli təhlilinin metodoloji tətbiq prinsipləri müəllif mövqeyi bildirilməklə, kifayət qədər ətraflı açıqlanmışdır. Müəllifə görə, internet şəbəkəsində münasibətlərin hüquqi tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlığın inkişafı perspektivlərini nəzərə alaraq, müvafiq dünya praktikasının "xəritəsini çəkmək üçün" ayrıca götürülmüş hüquq sistemində tənzimləmənin ümumiləşdirilmiş mənzərəsini formalaşdırmaq imkanı vardır. Həmin prinsiplərin sinxron aspektdə məcmusu hüquq sistemlərini bir-biri ilə müqayisə etməyə və ümumi nəzəri nəticələr çıxarmağa imkan yaradır. Fikrini inkişaf etdirərək, müəllif tədqiqat kontekstində anqlosakson, roman-german hüquq ailələrinə aid olan sistemlərin ən reprezentativ nümunələrini səciyyələndirir, Çin Xalq Respublikasının və Rusiya Federasiyasının müvafiq hüquq sisteminə xüsusi yer ayırır. Burada müvafiq dünya təcrübəsi təhlil edilməklə, ayrı-ayrı ölkələrin qanunvericiliyinin səmərəli approksimasiya və unifikasiya üsulları şərh olunur. Müəllif internetin hüquqi tənzimlənməsi sahəsində mövcud olan problemləri üç əsas istiqamət - istifadəçilərin eyniləşdirilməsi, informasiya vasitəçilərinin məsuliyyəti və yurisdiksiyanın müəyyənləşdirilməsi vektoru üzrə ümumiləşdirilməsini məqsədəuyğun hesab etmişdir.

Azərbaycanın internet məkanında hüquqi tənzimləmə məsələlərinə xüsusi yarımfəsil həsr olunmuş, internetin milli seqmentində hüquqi tənzimləmə məsələlərinin həlli ilə bağlı elmi əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür. Azərbaycanda informasiya texnologiyaları və internetin sürətli inkişafı qeyd edilməklə, internet üzərindən fəaliyyətin arealının genişlənməsini şərtləndirən amillər səciyyələndirilmişdir. Bu baxımdan ölkəmizdə informasiya cəmiyyəti quruluğunun əsas istiqamətləri müəyyən olunduğu Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın roluna xüsusi diqqət verilmişdir. Bu strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın reallaşdırılması prosesi təhlil edilmişdir.

Şəbəkə iqtisadiyyatında informasiya təhlükəsizliyinin, xüsusilə kibertəhlükəsizliyin təmin edilməsi həlledici əhəmiyyətə malik vəzifədir. İnternet-məkanda inkişaf hər mərhələdə kibertəhlükəsizliyin təmin olunması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini tələb edir. Bu baxımdan Azərbaycana daxil olan internet trafikində qlobal kiberhücumların qarşısının alınması, rəqəmsal proseslərin mühafizəsi, informasiya ehtiyatlarının və sistemlərinin mümkün təhdidlərdən qorunması istiqamətində görülən tədbirlər dəyərləndirilmişdir.

Monoqrafiyada dini və ənənəvi hüquq ailələrinə daxil olan ölkələrin internet məkanında hüquqi tənzimləmə sistemlərinə münasibət maraqlı və kifayət qədər orijinaldır. Müəllif haqlı olaraq göstərir ki, dini və ənənəvi hüquq ailələrinə daxil olan ölkələrin internet məkanında hüquqi tənzimləməyə münasibətin ən reprezentativ nümunəsi islam hüququ ola bilər.

İnternet-məkanda hüquqi tənzimləmənin təhlilinə dair sistemli metodologiyadan istifadənin nəticələrinə həsr olunmuş dördüncü fəsildə, əvvəlcə haqqında danışılan metodologiyaya əsaslanan nəzəri nəticələr əsaslandırılır, daha sonra isə onların praktiki əhəmiyyəti açıqlanır. Fəslin sonunda internet-məkanda hüquqi tənzimləmə problemləri qismində həmin məkanda axtarış mexanizmlərinin tənzimlənməsi, fərdi məlumatların qorunması və intellektual hüquqların müdafiəsi problemlərinə xüsusi münasibətin zəruriliyi vurğulanır.

Monoqrafiyanın sonunda əldə edilmiş elmi-nəzəri əhəmiyyətli nəticələr xülasə edilir. İnternet-məkanda yaranan ictimai münasibətləri hüquqi tənzimləmənin keyfiyyətcə yeni obyekti hesab edən müəllifin həmin obyektə münasibətdə əsaslandırdığı müddəalar, əldə etdiyi nəticələr, irəli sürdüyü təkliflərdən istifadə etməklə ciddi praktiki fayda əldə etmək mümkündür.

Gənc alim Rəşad Əzizov haqlı olaraq hesab edir ki, rəqəmsal tənzimləmənin əsas vəzifələrindən biri internetin keyfiyyətinin yüksəldilməsi, auditoriya iştirakçıları arasında sağlam münasibətlərin formalaşdırılmasıdır. Bu baxımdan bir çox məsələlər hüquqi tənzimləmənin predmetidir. Rəqəmsal bazar iştirakçıları arasında münasibətlərin sağlam rəqabət əsasında qurulması üçün hüquqi tənzimləmənin artan rolu nəzərə alınmalıdır. Məhz rəqəmsal bazarın oyunçuları, o cümlədən provayderlər arasında sağlam rəqabətin olması, internetin keyfiyyətinə, sürətinə, istifadəçi sayına və xidmətlərin səviyyəsinə müsbət təsir göstərə bilir. Etiraf etmək lazımdır ki, internetin keyfiyyəti arzuolunan səviyyədə deyildir. Belə vəziyyət xeyli dərəcədə bazarın hələ də zəruri dərəcədə liberallaşmaması, oyunçuların birmənalı şəkildə müəyyən edilməməsi ilə əlaqədardır. Bu baxımdan onlayn kontentlərin tənzimlənməsinin hüquqi bazasının möhkəmləndirilməsi məsələsi də gündəlikdə olmalıdır.

Rəqəmsal infrastrukturun inkişaf səviyyəsi rəqəmsal mühitdə səmərəliliyi şərtləndirən mühüm amildir. Məhz inkişaf etmiş və yaxın perspektivin tələblərini nəzərə almağa imkan verən infrastruktur rəqəmsal mühitin üstünlüklərini realaşdırmağa imkan verə bilir. İnternetin çoxsəviyyəli tənzimlənməsi infrastruktur təminatı, onlayn-servislərin vəziyyəti ilə bağlıdır. Haqqında danışılan qlobal şəbəkədə böyük platformaların formalaşması, maliyyə texnologiyalarından, onlayn ödənişlərdən, blokçeyn texnologiyalarının təbiqindən gözlənilən səmərənin əldə edilməsi infrastrukturun inkişafında çoxvariantlı yanaşmaların müqayisəli təhlilinə əsaslanan hüquqi tənzimləmədən asılıdır. Həmin imkanların reallaşdırılması isə mükəmməl tənzimləmə mexanizminin yaradılması və adekvat hüquqi təminat sayəsində mümkündür. Bu və digər məsələlərin həllinə dair müəllifin mövqeyi kifayət qədər əsaslı olub, mühüm elmi və təcrübi əhəmiyyətə malikdir. Qeyd etmək olar ki, bu monoqrafiya rəqəmsal hüquq üzrə ixtisaslaşan tədqiqatçının artıq altıncı elmi əsəridir.

Rəşad Əzizovun "İnternet-məkanda hüquqi tənzimləmə: tarix, nəzəriyyə, komparativizm" adlı monoqrafiyası rəqəmsal mühitin hüquqi tənzimlənməsi sisteminə dəyərli töhfədir. Əsər sahənin tədqiqatçıları, mütəxəssislər və ümumilikdə zəruri hazırlıq səviyyəsinə malik oxucular üçün maraqlı və faydalı olacaqdır.

Ziyad SƏMƏDZADƏ,
akademik,

Kamil SƏLİMOV,
hüquq elmləri doktoru,
professor,

Rəsul BALAYEV,
iqtisad elmləri doktoru,
professor

Семь прогнозов Билла Гейтса на 2022 год



Сооснователь Microsoft, миллиардер-филантроп, один из богатейших людей планеты Билл Гейтс с оптимизмом смотрит на 2022 год. Гейтс спрогнозировал ряд научных прорывов в разных сферах человеческой жизни и деятельности в новом году, пишет израильский «Девятый канал».

Пандемия коронавируса

По мнению Билла Гейтса, в 2022 году острая фаза пандемии коронавируса будет преодолена, несмотря на штамм "омикрон", который стремительно захватывает мир, вытесняя доминирующую "дельту". Ранее Гейтс прогнозировал, что годом окончания пандемии станет 2021 год. Однако он признал, что недооценил, насколько сложно окажется убедить людей вакцинироваться и продолжать носить маски. В 2022 году, считает Гейтс, ковид станет эндемическим заболеванием, то есть характерным для некоторых регионов планеты. Кроме того, миллиардер отмечает, что в текущий момент у человечества гораздо больше возможностей для создания обновленных вакцин, если они, конечно, понадобятся.

Диагностика Альцгеймера по анализу крови

Болезнь Альцгеймера считается самым распространенным на планете нейродегенеративным заболеванием и провоцирует 60-70 процентов случаев слабоумия (деменции). По данным ВОЗ, деменцией страдают 50 млн человек по всей планете, и ежегодно таких больных становится на десять миллионов больше. Факторами риска развития данной болезни называют генетическую предрасположенность, травмы головы, клиническую депрессию и высокое кровяное давление в анамнезе. Методов радикального лечения болезни Альцгеймера не существует. Одной из главных проблем Альцгеймера - то, что его выявляют уже на прогрессирующих стадиях.

По убеждению Гейтса, новаторский метод анализа крови поможет диагностировать болезнь за годы до появления ее характерных признаков, что даст шанс на сохранение когнитивных способностей. Миллиардер отмечает, что в последние годы в этой сфере был достигнут значительный прогресс и 2022 год может стать переломным.

Блокировка Солнца

Гейтс рассчитывает, что в 2022 году может состояться пробный запуск экспериментального метода для борьбы с изменением климата, который разрабатывается учеными Гарвардского университета. Миллиардер вложил денежные средства в разработку проекта SCoPEx (эксперимент по контролируемому возмущению стратосферы), который создали специалисты по солнечной геоинженерии.

"Проект предполагает запуск в атмосферу на высоту 20 километров частиц карбоната кальция (от 100 граммов до 2 килограммов) при помощи воздушного шара. В результате образуется рассеянная туча, которая позволит снизить негативное воздействие солнечных лучей на планету и приостановить или обратить глобальное потепление", - отмечают в Гарварде.

Диагностика здоровья на дому

Гейтс прогнозирует, что уже в ближайшем будущем появится устройство, которое позволит измерять все жизненно важные показатели, не выходя из дома. Филантроп уверен, что в ближайшие годы медики смогут собирать показатели своих пациентов с их «умных» часов. «То, что ваши смарт-часы станут домашним монитором здоровья, весьма вероятно. Но, честно говоря, мы все еще ждем появления множества новых приложений и датчиков», — отмечает он.

По словам Гейтса, любой человек в перспективе сможет сдать анализ крови в ближайшей аптеке, которая будет передавать результаты лечащему врачу. Он также видит большие возможности в развитии телемедицины, которая позволит пациентам не менять врачей, если они переезжают в другой город.

Искоренение полиомиелита

Гейтс заявил, что, если бы ему нужно было поставить на 2022 год только одну цель, то это было бы искоренение полиомиелита, а также туберкулеза и малярии. Полиовирус проникает в организм через рот, попадает в кровь и поражает нервную систему, часто вызывая пожизненный паралич. За последние десятилетия человечество сделало беспрецедентные усилия в борьбе с этой болезнью. Но пока еще есть страны, где полиомиелит не исчез. Гейтс хочет стать человеком, который предпримет финальные шаги для уничтожения полиовируса.

Водородный транспорт

По мнению Гейтса, в следующем году можно ждать серьезного прорыва в области чистой энергетики в рамках проектов Breakthrough Energy Ventures, Catalyst и Fellows. Миллиардер предсказывает реальный прогресс в обнаружении путей выработки экологически чистого и при этом доступного водородного топлива. В октябре этого года Гейтс и премьер-министр Британии Борис Джонсон объявили о проекте стоимостью 400 миллионов фунтов стерлингов, который должен ускорить развитие зеленой энергетики и достичь целей по нулевым выбросам углекислого газа к 2050 году. Разработки Breakthrough Energy Ventures, Catalyst и Fellows направлены на зеленый водород, долгосрочное хранение энергии, экологически безопасное авиационное топливо и системы для улавливания CO2 из воздуха.

Место встречи — метавселенная

Через два-три года большинство виртуальных встреч будут проходить в метавселенной. "Идея заключается в том, что в конечном итоге вы будете использовать свой аватар для встреч с людьми в виртуальном пространстве, которое имитирует ощущение присутствия в реальной комнате вместе с ними. Для этого вам понадобится что-то вроде VR-очков и перчаток с захватом движения", - уверяет Гейтс, подчеркнув, что технологический аспект метавселенной развивается крайне быстро, а со временем этот процесс лишь ускорится.

Издание Foreign Policy определило пять наименее важных международных споров в 2021 году, передает Tengrinews

В списке споров оказался конфликт между Россией и Францией по поводу шампанского. В России приняли закон, который обязал производителей шампанского из-за границы называть свои напитки исключительно "игристые вина", тогда как на название "шампанское" имеют право только напитки из РФ. Такое решение возмутило французских производителей из региона Шампань, призвавших прекратить поставки в Россию. В итоге французы добились отсрочки действия этого закона до конца 2021 года.

Еще один конфликт случился с японским рестораном на острове Окиношима. Одно блюдо этого заведения вызвало критику со стороны как Северной, так и Южной Кореи из-за того, что в этом блюде подавались два куска риса в форме спорных островов

Докдо с миниатюрным флагом Японии над ними. В КНДР назвали такое блюдо сигналом того, что Япония планирует захватить острова, а в Южной Корее его назвали "типичным дешевым трюком" со стороны японцев.

Также среди таких споров оказался скандал между Украиной и британским бизнесменом, профессором Джимом Смитом. В мае 2021 года правоохранители конфисковали полторы тысячи бутылок водки Atomic, которую производят в Чернобыльской зоне отчуждения. Британцы запустили там собственное предприятие, которым руководят ученые. Исследователи выращивают экспериментальные культуры, пытаясь выяснить, можно ли из чернобыльских продуктов изготовить безопасные для потребления товары. Водка под названием Atomic производится для британского рынка. Но правоохранители конфисковали ее якобы по подозрению в контрабанде алкоголя и подделке акцизных марок. Смит отмечал, что на водке есть британские марки, а не украинские. В итоге он подал в суд и выиграл его.

Еще два конфликта произошли в Европейском союзе.

Первый возник между Италией и Хорватией - за право называть свое вино "просекко". Второй вызвало фактическое изменение границ между Бельгией и Францией. В мае 2021 года бельгийский фермер из муниципалитета Эркелиннес сдвинул пограничный камень почти на 2 метра, чтобы его трактору было удобнее проехать. Таким образом он нарушил Кортрейкские соглашения 1820 года о границах между Бельгией и Францией. После переговоров между мэрами бельгийского и французского пограничных городов фермера обязали вернуть камень на место.

Gələn ildən vergiödəyiciləri daha hansı məlumatları vergi orqanına verə bilərlər?

DÖVLƏT VERGİ XİDMƏTİ

Vergi Məcəlləsinə nəzərdə tutulan dəyişikliklər parlamentdə III oxunuşda qəbul edilib. Artıq mütəxəssislər yeniliklərin detallarını açıqlayırlar.

Gözlənilən dəyişikliklərlə bağlı fikirlərini bölüşən Bakı Hesabat Mərkəzinin direktoru Mehdi Babayevin sözlərinə görə, Vergi Məcəlləsinə 2022-ci il yanvarın 1-dənən təklif olunan dəyişikliklər qüvvəyə minərsə, vergiödəyiciləri vergi orqanına bu məlumatları da təqdim edəcəklər: "İstehsal olunacaq hazır məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları, həmçinin hesabat dövründə həmin normalara dəyişikliklərlə bağlı dəqiqləşdirilmiş məlumatlar (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla), idxal ediləcək malların saxlanılacağı (boşaldılacağı) yer barədə, yaxud həmin malların saxlanma yeri barədə, yaxud həmin malları sifariş verən şəxslər barədə və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə, kreditor və debitor borcları barədə (mənfəət, gəlir vergisinin ödəyiciləri), bank ödəniş tapşırıqlarında elektron qaimə-fakturanın seriya və nömrəsi, yaxud müntəzəm alışlar üzrə bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi, işlərin və xidmətlərin alışı ilə bağlı (invoys) sənədinin tarixi və nömrəsi, yaxud borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi, yaxud avans ödənişin olduğu göstərilməklə tələbnamənin, müqavilə və ya əlavənin tarixi və nömrəsi və orta və iri sahibkarlıq subyektləri mühasibat standartları üzrə hazırlanan maliyyə hesabatları (vergi orqanının tələbi ilə)".

M.Babayev əlavə edib ki, əslində bütün sadalanan məlumatlar mühasiblər tərəfindən hazırlanır və ya əldə olunur. Artıq onlar bu məlumatların verilməsini təmin etmək üçün həmin məlumatları əsaslandıran əməliyyatların uçotunu düzgün, dürüst və vaxtında aparmalıdırlar: "Həmçinin bilməlidirlər ki, əvvəlcədən təqdim olunan bu məlumatlardakı göstəricilər sonradan təqdim olunan mənfəət (gəlir) bəyannamələrinin 1 nömrəli Əlavəsinin göstəriciləri ilə uyğunlaşdırılmaqla vergi orqanı tərəfindən kameral yoxlamalar aparılacaq. Başqa sözlə, uyğunsuzluqların düzgün əsaslandırılması üçün vergi orqanının məlumat bazası genişləndirilir. Ona görə də mühasiblər tərəfindən rəhbər və icraçı menecerlərə daha məsuliyyətli olmaları və mühasiblərin özlərinin də məsuliyyətinin artacağı barədə xəbərdarlıq etmələri tövsiyə olunur".



BÖYÜK QAYIDIŞA APARAN YOLLAR...

Yer kürəsində Azərbaycan kimi separatizmdən və işğaldan əziyyət çəkən və onun ağır fəsadlarını bu gün də yaşayan ikinci bir ölkə tapmaq çətindir. Milli-dini mənsubiyyətinə görə qonşularına qarşı nifrət toxumu səpən ermənilər kimi ikinci bir toplum da tapmaq çətindir. Otuz il davam edən və insanların həyatına məşəqqətlər gətirən, bəşəriyyətin bir parçası olan Azərbaycanın mədəni irsinə olmazın ziyan vuran bu münaqişə bütün xalqlar və millətlər üçün ibrət nümunəsi olmalıdır. Əks halda dünya yeni münaqişələr və milli-dini ayrıseçkilikdən yaxa qurtara bilməyəcəkdir. Azərbaycan 44 günlük Vətən müharibəsində Cənubi Qafqazda milli zəmində separatizmə rəvac verənləri öz gücü ilə məhv etdi. Dünyada mövcud olan ikili yanaşma, işğalçını işğala məruz qalanla eyniləşdirmə təzahürlərinin davam etməsi hələ qanlı savaşların sovuşduğundan xəbər verir. BMT-nin qətnamələrini 30 il icra etməyən, ərazilərimizdə bəşəri cinayətlər törədən, yer üzündə nə varsa, hər şeyi darmadağın edən Ermənistan kimi təcavüzkar bir dövləti başqa yolla yerində otuzdurmaq mümkün olmayacaqdı.

Ermənistan məğlub oldu, Azərbaycan öz gücü ilə tarixi ədaləti bərpa etdi. Lakin vurulan ziyanın miqyası o qədər böyükdür ki, onları aradan qaldırmağa xeyli zaman və böyük maliyyə vəsaiti lazım gələcəkdir. Azərbaycanın iqtisadi gücü və qüdrəti, xalqımızın Qarabağ sevgisi nəticəsində doğma yurd yerlərinin hər qarışı dirçələcək, yenidən qurulacaq, hər yan gülüstana çevriləcəkdir. Buna heç bir şübhə yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 dekabr 2021-ci ildə imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı bu xüsusda böyük önəm daşıyır. Ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması 2021-2030-cu illəri əhatə edən yeni strateji mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır. Burada söhbət ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastrukturun yaradılmasından gedir. Ötən bir il ərzində reallaşdırılan layihələr onu deməyə əsas verir ki, yaxın illər ərzində işğaldan azad olunmuş ərazilərdə həyat canlanacaq, soydaşlarımızın öz doğma torpaqlarında məskunlaşması ilə bağlı qarşıda duran vəzifələr uğurla yerinə yetiriləcəkdir. Hal-hazırda qarşıda duran əsas vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından rasional şəkildə istifadə edilməsi ilə bağlıdır. Çünki həmin ərazilər iqtisadi resurslarla zəngindir. Mütəxəssislər tərəfindən burada əsasən aşağıdakı istiqamətlərin inkişafı önə çıxarılmışdır: aqrar bölmə, ərzaq sənayesi, dağ-mədən sənayesi, yaşıl enerji, nəqliyyat-logistika və turizm sektoru. Ərazilərdə 200 min hektar əkinəyararlı torpaqlar və bu rəqəmdən də çox örüş sahələri, həmçinin on minlərlə hektar təmas xətti boyunca istifadəsiz qalan torpaqlar aqrar biznesin resurs əsasını təşkil edir.

Hesablamalar göstərir ki, orta müddət perspektivdə Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatına 10,4 faiz artım verəcək. Bundan başqa, 167 faydalı qazıntı ehtiyatı hesabına dağ-mədən sənayesinin inkişafı nəzərdə tutulur. Söyüdlü yatağının istismarı hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları yaranır. Qarabağ bölgəsinin ölkəmizin mədənçıxarma sənayesinə 5,3 faiz, emal sənayesinə 4,3 faiz təsiri ola bilər. İşğaldan azad olunmuş ərazilər enerji və su mənbələri ilə zəngindir. Ərazinin coğrafi mövqeyi tranzit daşımalar üçün geniş imkanlar yaradır. Zəngəzur dəhlizinin açılması Avrasiya məkanında yüklərin qısa marşrutlarla daşınması üçün böyük potensial yaradacaq. Qarşıda duran əsas vəzifələrdən biri də həmin ərazilərin respublikamızın digər bölgələri ilə qısa müddət ərzində inteqrasiya olunmasıdır. Yuxarıda adı çəkilən sərəncama əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması həm işğaldan azad olunmuş ərazilərin, həm də reinteqrasiya proseslərinin sürətləndirilməsi baxımından xüsusi önəm daşıyır. Həmin ərazilər həyata keçirilən layihələr hesabına qısa müddət ərzində sülh və əməkdaşlıq məkanına çevriləcəkdir.

Sərəncamda deyilir: "Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir".

Sərəncamda bir sıra kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə Nazirlər Kabinetinə işğaldan azad olunmuş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yonəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi ilə bağlı 3 ay müddətində təkliflərin hazırlanması və Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi tapşırılmışdır.

Təkliflərdə, həmçinin həmin ərazilərdə özəl təşəbbüslərin dəstəklənməsi, investisiyaların təşviqi mexanizminin təkmilləşdirilməsi, istehsalla məşğul olan sahibkarlıq subyektləri üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən olunması nəzərdə tutulmuşdur. Elektrik enerjisi, su, qaz istehlakı üçün güzəştlərin tətbiqi də sənəddə öz əksini tapmışdır.

Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə innovativ yanaşmaların geniş tətbiqinin üstün mövqeyə gətirilməsini əsas hədəf kimi qarşıya qoymuşdur. Hazırda həmin ərazilərdə "yaşıl iqtisadiyyat" quruculuğu, "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icrası istiqamətində işlər görülür. Bu cür layihələrin gerçəkləşməsi üçün yüksəkixtisaslı mütəxəssislərə böyük zərurət yaranmışdır. Bu ehtiyac nəzərə alınmaqla sərəncamda hökumətə müasir bilik və bacarıqlara yiyələnmiş mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, həmçinin əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq tapşırılmışdır. Hazırlanacaq təkliflər əsasında işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanları genişləndiriləcək və bu istiqamətdə zəruri dövlət dəstəyi gücləndiriləcəkdir. Sərəncamda işğaldan azad olunmuş ərazilərdə ekoloji təmiz texnologiyaların dəstəklənməsi nəzərdə tutulmuşdur. Hazırlanacaq təkliflərin bir qismi həmin ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının uzlaşdırılması məsələlərini əhatə edəcəkdir. Tam əminliklə deyə bilərək ki, qarşıya qoyulan vəzifələrin hamısı uğurla icra olunacaq, bu torpaqlarda daha neçə-neçə möhtəşəm layihələr intişar tapıb gerçəkləşəcək, hər gələn nəsil sevinclə, ehtişamla dolu aylara, illərə qovuşacaqdır.

Zülfü İLYASOV,
"İqtisadiyyat"
qəzetinin xüsusi müxbiri

Ümumi evimizi qoruyaq

Yola saldığımız ötən il planetimizin həyatında bir çox əhəmiyyətli hadisələrlə yadda qaldı. Lakin mütəxəssislər hesab edir ki, bu gün bəşəriyyəti narahat edən əsas problemlərdən biri insan fəaliyyəti ilə bağlı olan istixana tullantıları nəticəsində yaranan qlobal istiləşmə səviyyəsinin qarşıdakı 20 il ərzində orta hesabla 1,5 dərəcəyə çatacağı və hətta onu keçəcəyi problemidir. Bu isə hər bir canlının həyatı üçün arzolunmaz və geridönməz fəsadların yaranmasına yol açа bilər.

Yaşadığımız dünya, bizi əhatə edən aləm sürətlə inkişaf edir. Son əsrdə insan və ətraf mühit bəşəriyyətin bütün əvvəlki minilliklər tarixinə nisbətən daha çox dəyişmişdir: müasir insan əvvəllər təbiətdə olmayan yeni fiziki və kimyəvi amillərin təsirinə məruz qalmışdır. Bunlar ionlaşdırıcı şüalanma, elektromaqnit dalğaları və sahələri, ultrasəs, vibrasiya, yüksək səs-küy yükləri və s.-dir.

İNSAN VƏ TƏBİƏT

Biz, adətən, elmin hər yeni nailiyyətinə sevinirik, insanın təbiət üzərində qazandığı qələbələrlə fəxr edirik. Lakin bu nailiyyətlərin çoxunun bir müddət sonra nə qədər böyük fəsadlara, ağır nəticələrə gətirib çıxaracağını düşünmürük.

Vaxtilə F.Engels yazırdı: "Təbiət üzərində qələbələrimizlə özümüzü çox aldatmayaq. Hər belə qələbə üçün o, bizdən qisas alır. Bununla belə, bu qələbələrin hər biri ilk növbədə gözlədiyimiz nəticələrə gətirib çıxarır. Daha sonra isə tamamilə fərqli, gözlənilməz fəsadlar baş verir ki, bu da çox vaxt birincinin əhəmiyyətini məhv edir".Bir qayda olaraq, insanların ilk nailiyyətlər haqqında geniş məlumatı olur. Mətbuatda, televiziyada, əsasən, elmin və istehsalın nailiyyətləri geniş şəkildə işıqlandırılır, lakin mənfi nəticələri haqqında çox az məlumat verilir. Buna görə də insanların çoxu bu nəticələrin əhəmiyyətini tam dərk etmir. Sənaye istehsalının nəhəng miqyasda inkişafı, istehsalın, kənd təsərrüfatının və insan həyatının kimyəviləşdirilməsi nəticəsində yaşadığımız xarici mühitin fiziki-kimyəvi xassələrində mühüm dəyişikliklər baş vermiş və bu, gündən-günə artmaqda davam edir.

ƏTRAF MÜHİTİN İNTENSİV ÇİRKLƏNMƏSİ VƏ İNSAN SAĞLAMLIĞI

İçdiyimiz su, yediyimiz yemək, nəfəs aldığımız hava vasitəsilə arsendən tutmuş sirkonyuma qədər müxtəlif zərərli maddələrin mikro dozaları hiss olunmadan bədənimizə daxil olur. ÜST ekspertlərinin qənaətinə görə, bütün xəstəliklərin 23%-i ətraf mühit amillərinin təsiri ilə bağlıdır.

Ən ciddi ekoloji pozuntulardan biri planetimizin qaz balansının dəyişməsidir. Atmosfer üçün ən təhlükəli çirkləndiricilər istənilən yanacaq növünün yanması zamanı əmələ gələn azot dioksid və əsas mənbəyi avtomobil nəqliyyatı və istilik elektrik stansiyaları olan poliaromatik karbohidrogenlərdir. Bir tərəfdən sənaye istehsalının və nəqliyyatın inkişafı nəticəsində oksigen istehlakı və yanması çox artır, digər tərəfdən, bəşəriyyət eyni vaxtda bitkilərin mənimsədiyindən daha çox karbon qazı istehsal edir. Karbon qazını udaraq oksigeni buraxan yaşıl bitkilər və yosunlar müəyyən dərəcədə qaz balansını bərpa edir. Lakin planetimizin florasının bərpaedici imkanları məhduddur. Hesablamalar göstərir ki, bir yetkin palıd iki nəfər üçün kifayət qədər oksigen istehsal edir. Amma bir kiçik avtomobilin buraxdığı karbon qazını atmosferdən çıxarmaq üçün ərazisində 150 palıd ağacı olan meşəyə ehtiyac var. Orta ölçülü bir istilik elektrik stansiyası 1,6 min kvadrat kilometrlik bir meşə sahəsinin istehsal etdiyi qədər oksigen istehlak edir. Avropanın və Amerikanın iri şəhərlərində olmuş hər kəs görüb ki, təkcə fərdi sakin deyil, bütövlükdə cəmiyyət ətraf mühiti düşündürən tədbirlər kompleksi həyata keçirir: daha az zərərli benzin növlərinin istifadəsi, sıx məskunlaşan ərazilərdən yan keçmək üçün nəqliyyat axınlarının yaradılması, yollarda elektriklə işləyən nəqliyyat vasitələrinin payının artırılması və s. Lakin bu, kifayət deyil. Xüsusi tədqiqatlar göstərmişdir ki, havanın çirklənməsi uşaqlarda və böyüklərdə kəskin və xroniki tənəffüs xəstəliklərinin, yaşlıların vaxtından əvvəl ölümünün səbəbidir.

Məlumdur ki, hava və su planetimizdəki bütün canlılar, o cümlədən insanlar üçün əsas yaşayış amilləridir. İnsan yeməksiz aylarla yaşaya bilər, lakin su olmadan bir neçə gün belə yaşaya bilməz. İnsan 80% sudan ibarətdir, buna görə də onun istehlak etdiyi suyun miqdarı və keyfiyyəti sağlamlığı və həyatı üçün xüsusi əhəmiyyət kəsb edir.

TƏMİZ TƏBİİ SU GETDİKCƏ AZALIR

Alimlərin fikrincə, içməyə yararlı təmiz şirin suyun getdikcə daha bahalı məhsula çevrilməsi, maya dəyərinin gec-tez neftin maya dəyərini aşması uzaq gələcəkdə deyil. Su istehlakı dünya əhalisinin artımından iki dəfə sürətlə artır. Dünyanın bir milyarddan çox sakini artıq xroniki su çatışmazlığı şəraitində yaşayır. 20-25 ildən sonra bu kəsir artıq dünya əhalisinin təxminən yarısı üçün yaşana bilər. Təmiz şirin su ehtiyatlarının azalması prosesi meşələrin qırılması, karxanaların, yolların tikintisi və s. zamanı əsasən kortəbii insan fəaliyyəti nəticəsində baş verir. Dənizlərdən kiçik çaylara və yeraltı sulara qədər müxtəlif su mənbələrinin çirklənməsi bu günün aktual problemi kimi geniş miqyasda davam edir. ÜST-ün məlumatına görə, insan xəstəliklərinin 30%-nin səbəbi keyfiyyətsiz içməli su istehlakı ilə bağlı yarana bilər.

Son yüz il ərzində kənd təsərrüfatında müxtəlif növ pestisidlərin istifadəsi və paylanması olduqca artmışdır. Müxtəlif növ kimyəvi vasitələrin, ilk növbədə herbisidlərin və pestisidlərin su və qida ilə nisbətən kiçik dozalarda, lakin çox uzun müddətə insan orqanizminə daxil olmasının ağır fəsadları var. Aparılan epidemioloji tədqiqatlar göstərmişdir ki, bu cür mənfi təsirlər nəticəsində dölün ana bətnində inkişafındakı bəzi qüsurlardan tutmuş böyüklərdə xərçəngə qədər bir sıra xəstəliklər inkişaf edə bilər.

URBANİZASİYANIN FƏSADLARI

Aydındır ki, ətraf mühitin ən müxtəlif çirklənməsi böyük şəhərlərdə özünü daha qabarıq göstərir. Oradakı hava, su daha çirkli və zərərlidir. Buna görə də şəhər sakinləri kənd sakinlərindən orta hesabla 5-7 il az yaşayırlar. Eyni zamanda, böyük şəhərlərdə həyat şəraitinin zərərli olmasına baxmayaraq, uzun müddətdir ki, insanların müxtəlif səbəblərdən şəhərlərə köçməsi və nəticədə şəhərlərin sayının və ölçüsünün artması tendensiyası müşahidə olunur. **1900-cü ildə böyük şəhərlərdə yaşayan dünya əhalisinin payı cəmi 5% idi, 1950-ci ildə - 12%, 1960-cı ildə - 20%-dən çox, 1970-ci ildə - 50%-dən çox. Bu gün şəhər əhalisinin payı durmadan artmaqda davam edir. 19-cu əsrin ortalarında dünyada əhalisi bir milyondan çox olan cəmi 4 şəhər, 20-ci əsrin sonunda isə 200-dən çox belə "milyonçu" şəhər var idi.** Bundan başqa, əhalisinin sayı bir neçə on milyonlarla olan meqapolislərin sayı getdikcə çoxalır.

Böyük şəhərlərin ekologiyası bir sıra zərərli amillərin təsiri ilə yüklənir: həddindən artıq miqdarda qıcıqlandırıcı amillər, məlumatların hədsiz çoxluğu, stresli vəziyyətlər, əhalinin sıxlığı, sürətlənmiş həyat tempi, artan səs-küy yükü, yaşıllığın az olması, sənaye müəssisələrinin çoxluğu, ətraf mühitin müxtəlif zərərli amillərlə çirklənməsi və s. Bu gün ən çox yayılmış xroniki qeyri-infeksion xəstəliklərin əsas səbəblərindən biri də "sivilizasiya xəstəlikləri"dir – onlar müasir həyat şəraiti ilə fizioloji imkanlarımız arasında artan uyğunsuzluq fonunda yaranırlar.

Uzun müddət şəhərlərdə səs-küyün həddindən artıq olmasının ən ümumi nəticəsi eşitmə itkisidir. Müəyyən dərəcədə eşitmə problemləri 50-60 yaşdan sonra çoxlarında təsadüf olunur. Ancaq artan səs-küy yükləri zonasında olan böyük şəhərlərin sakinləri arasında eşitmə pozğunluğu artıq 35 yaşa qədər olan insanların yarıdan çoxunda qeyd olunur. Bundan əlavə, küçə, sənaye və ya digər səs-küyə uzun müddət məruz qalma, hətta aşağı səviyyədə olsa da, qan təzyiqinin yüksəlməsinə və ürək döyünmənin artmasına səbəb ola bilər. Səs-küyü hətta "şəhər sakinlərinin qatili" də adlandırırlar.

İnsanların təbiətlə münasibətlərinin indiki xarakteri böyük narahatlıq doğurur. Ətraf mühit insanların rifahına və sağlamlığına əhəmiyyətli təsir göstərsə də, insan müəyyən dərəcədə ekoloji şəraitə uyğunlaşa, təhlükəsizlik qaydalarını bilməklə özünü tamamilə qoruya bilər. Unutmaq olmaz ki, insan təbiətin ən mükəmməl varlığı olsa da, bu təbiətin bir parçası olaraq qalır. Onsuz, ondan kənarda insan üçün həyat yoxdur. Ətraf mühitdə və insanın həyat tərzində böyük dəyişikliklərin baş verdiyi müasir dünya insanın ekoloji şüurunun dəyişməsini və inkişafını tələb edir. Yer kürəsi bizim ümumi evimizdir və biz özümüzün, bizdən sonrakı nəsillərin qarşısında onun bugünkü vəziyyətinə görə cavabdehlik və məsuliyyət daşıyırıq.

Ekoloji maariflənmə. Əhalinin ekoloji tərbiyəsi uşaqlıqdan başlayır. Əgər siz uşaqlara kiçik yaşlardan təmizləməyi və zibil atmamağı, ağac əkməyi və qırmamağı öyrədirsinizsə, bu mövqeyi artıq formalaşdırırsınız. Həyatdakı bütün sonrakı addımlar və hərəkətlər bu mövqedən irəli gəlir.

Aytən SƏMƏDZADƏ

Stasionar nəqletmə vasitələri ilə keçən ay 4,1 milyon ton məhsul göndərilib

Noyabrda Azərbaycandan stasionar nəqletmə vasitələri ilə 4,1 milyon ton məhsul ixrac edilib. Dövlət Gömrük Komitəsindən bildirilib ki, ötən ay bu nəqletmə vasitələri ilə məhsul idxal olunmayıb.

Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub

Azercell uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verməkdə davam edir

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-nin dəstəyi ilə Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub. Sayca VI Uşaq Paralimpiya İdman Oyunları bu il hər bir idman növü üzrə ayrı-ayrı yarışlar şəklində və karantin rejiminin tələblərinə uyğun olaraq keçirilib.

Oyunlarda Bakı, Gəncə, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasından paralimpiyaçı uşaqlar iştirak ediblər. 13 noyabr-22 dekabr tarixləri arasında baş tutan VI Uşaq Paralimpiya İdman Oyunlarında ümumilikdə 5 idman növü üzrə 120-yə yaxın uşaq yarışıb. Uşaqlar pauerliftinq, stolüstü tennis, cüdo, üzgüçülük və para-taekvondo idman növləri üzrə oyunlarda iştirak ediblər. Hər idman növü üzrə yarışlar müxtəlif kateqoriyalarda keçirilib. Nəticədə 70-dən çox uşaq fərqli dərəcələr üzrə qalib elan olunub.

Sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edən "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.

2021-ci ilin yayında Tokioda keçirilmiş Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan Milli komandalarının tərəfdaşı kimi çıxış edən "Azercell Telekom" MMC növbəti Uşaq Paralimpiya yarışmasının iştirakçılarını və qaliblərini təbrik edir, onlara gələcəkdə daha böyük uğurlar arzulayır.

Əbdürrəhim bəy Haqverdiyev (1870-1933)

Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas, Azərbaycan SSR əməkdar incəsənət xadimi (1929), Azərbaycan ədəbiyyatının klassiki hesab olunan Əbdürrəhim bəy Haqverdiyev həm də Birinci Rus Dumasının Azərbaycandan deputatı, Gürcüstan Parlamentinin deputatı, "Leyli və Məcnun" operasının premyerasında ilk dirijor, Teatr Şurasının təsisçisi və birinci rəhbəri, Yazıçılar İttifaqının üzvü, "Molla Nəsrəddin" jurnalının yazarlarından biri olmuşdur. O, 1870-ci il mayın 17-də Azərbaycanın Şuşa şəhəri yaxınlığında olan Ağbulaq kəndində anadan olmuşdur. İbtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində, sonra Şuşa real məktəbində almışdır (1881-1890). Tiflis real məktəbini bitirəndən sonra Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır (1891-1899). Tələbəlik dövründə azad müdavim sifətilə universitetin şərq fakültəsinin dinləyicisi olmuşdur. Onda ədəbiyyata güclü meyil oyanmışdır. "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) və "Dağılan ittifaq" (1896) əsərlərini yazmışdır. "Dağılan ittifaq" (1899) Peterburqda nəşr edilmişdir. 1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev bir



müddət Bakıda yaşayıb. O, bir tərəfdən müəllimliklə məşğul olub, digər tərəfdən teatrlarda verilən tamaşalara rejissorluq edib. Eyni zamanda, bədii yaradıcılığını da davam etdirib: "Bəxtsiz cavan" (1900) və "Pəri-cadu" (1901) faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirib.

Ali təhsil alıb Şuşaya qayıtmış, burada tamaşalar təşkil etmişdir. Bakıda onun rəhbərliyi ilə Şərq konsertləri verilmiş (1902-1903), həmçinin o, burada ilk hekayələrini ("Ata və oğul", "Ayın şahidliyi") yazaraq, "İki hekayət" adı ilə çap etdirmişdir.

1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir (Azərbaycanın birinci diplomatlarından hesab olunur), burada dövlət kitabxanasında yeni əsərinə (Ağa Məhəmməd şah Qacar) materiallar toplamış, İrana - Mazandaran vilayətinə səyahət etmişdir (1907). 1906-cı ildə "Həyat" qəzetində hekayələr və "Molla Nəsrəddin" jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirmişdir. O, "Marallarım", "Xortdanın cəhənnəm məktubları", "Şeyx Şaban", "Xəyalət", "Ac hərflər" və s. əsərlərinin müəllifidir. "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri, tamaşanı idarə etmişdir. "Nicat" cəmiyyətində və Kür-Xəzər gəmiçiliyi idarəsində işlədiyi dövrdə Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etmiş, "Ceyranəli", "Xortdan". "Həkimi-nuni-səqir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" və s. imzalarla "Molla Nəsrəddin" jurnalında hekayə, felyeton çap etdirmişdir.

Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-ictimai həyatında ciddi çalışmışdır (1910). Sonra Ağdama köçüb orada yaşamışdır (1911-1915). Tiflisdə "Şəhərlər İttifaqının Qafqaz şöbəsi xəbərləri" adlı aylıq məcmuənin müdiri olmuş (1916-1917), fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917). Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur (1918).

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonda dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibəti ilə keçirilən yubileyə başçılıq etmişdir. Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında iştirak etmişdir. Burada yerli komitənin sədri (1922), Azərbaycanı tədqiq və təbliğ cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925) olmuşdur. Bu, ilk elmi tədqiqat müəssisəsi idi. O, Bakıda çağırılan birinci Azərbaycan ölkəşünaslıq qurultayının nümayəndəsi kimi fəal çalışmışdır (1924).

Bunlardan başqa, ədib Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Volterin "Soltan Osman", Zolyanın "Qazmaçılar", Andersenin "Bülbül", "Şahın təzə libası", Lanskoyun "Qəzəvat", Çirikovun "Yəhudilər", Korolenkonun "Qoca zəng çalan" əsərlərini də tərcümə etmişdir.

Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir (1924). Şərq fakültəsinin katibi (1922-1925), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1931-1932) olmuşdur.

Azərbaycan Xalq Komissarları Şurasının 6 fevral 1929-cu il tarixli qərarı ilə "Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adına, 1933-cü ildə isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür. Onun əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

1933-cü il dekabrın 12-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Məşhur şərabçılıq şirkəti "Şəki Şərab" MMC-ni özəlləşdirdi

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən "Şəki Şərab" MMC-nin dövlətə məxsus payının satışı üzrə elan edilən investisiya müsabiqəsinin qalibi Rusiyanın "Abrau-Durso" PSC yerli törəmə müəssisəsi olan "AzAbrau" MMC elan olunub.

Xidmətdən bildirilib ki, dekabrın 27-də Dövlət Xidməti və Rusiyanın "Abrau-Durso" PSC arasında "Şəki Şərab" MMC-nin satışı üzrə alğı-satqı müqaviləsi imzalanıb. Müqavilənin şərtlərinə uyğun olaraq, müsabiqə qalibi dövlət büdcəsinə 1 milyon 920 min manat məbləğində pul vəsaitinin köçürülməsini, müəssisənin inkişafı üçün ümumi həcmi 4 milyon 500 min manata yaxın məbləğdə təşkil edən İnvestisiya Proqramının icrasını üzərinə götürüb.

"AzAbrau" MMC, həmçinin müəssisənin ümumi məbləği 535 min manat olan əməkhaqqı, dövlət büdcəsi, DSMF, habelə kreditorlara olan borclarının ödənilməsini təmin edəcək. "AzAbrau" MMC Azərbaycanın üzümçülük rayonlarından olan Şəkidə premium kateqoriyalı üzüm şərablarının, həmçinin desert şərabların istehsalını planlaşdırır. Şirkət yaxın perspektivdə üzüm bağlarının salınmasını da nəzərdə tutur. Üzüm sortları arasında yalnız bu regionda yetişən Mədrəsə və Bayanşirə xüsusi maraq doğurur. Qeyd edək ki, "Şəki Şərab" MMC 6 hektar ərazidə yerləşir. Müəssisə ildə 2,6 milyon butulka şərab istehsal etmək imkanına malikdir.

"Abrau-Durso" PSC qədim şərabçılıq ənənələrinə malik Azərbaycan şərablarının, ilk növbədə, Rusiya bazarlarına, həmçinin digər xarici bazarlara da çıxışını genişləndirmək niyyətindədir.

Müəssisənin şərabçılıq sahəsində tanınmış "Abrau-Durso" PSC tərəfindən özəlləşdirilməsi Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafında,

müasir texnologiyaların tətbiqində, şərab məhsullarının ixracının genişləndirilməsində xüsusilə əhəmiyyətlidir.

İnvestisiya müsabiqəsinin qalibi böyük şərabçılıq və biznes təcrübəsinə malik şirkətlər qrupudur və dünyanın 20-dən çox ölkəsinə şərab ixrac edir. Rusiyanın ən böyük şərab satıcısı olan "Abrau-Durso" Rusiyanın pərakəndə satış məntəqələrində geniş təmsilçilik hüququna malikdir. "Abrau-Durso" Rusiyada 5 tanınmış spirt markasından biri olmaqla yanaşı, şərab istehsalçıları arasında həm kəmiyyət, həm də keyfiyyət baxımından ən geniş distribütorluğa malikdir. 4 şərab zavodunun sahibi olan şirkətlər qrupu 2020-ci ildə 40 milyon butulkadan çox məhsul satışına müvəffəq olub. Şirkətin 3 böyük üzüm bağı, 6500 hektardan çox torpaq sahəsi və "Abrau-Durso" brend mağazaları var.

ÖMRÜNÜ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINA VƏ TƏRƏQQİSİNƏ HƏSR EDƏN PEŞƏKAR MÜTƏXƏSSİS

Azərbaycan Respublikasının Auditorlar Palatası Aparatının rəhbəri, ömrünün təxminən 50 ilini ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına həsr etmiş zəhmətlə yüksələn insan, tələbkar istehsalat rəhbəri, bacarıqlı təşkilatçı, qayğıkeş və mehriban iş yoldaşı Qəşəm Hacalı oğlu Bayramovun 70 yaşı tamam olur.

Bu gün Azərbaycanda bazar infrastrukturları sistemində özünəməxsus yer tutan, milli auditin təşəkkülündə və inkişafında müstəsna xidmətləri olan mütəxəssislərdən biri - Qəşəm Bayramov 1952-ci il yanvarın 3-də Gürcüstan Respublikasının Bolnisi rayonunun Saraclı kəndində anadan olmuşdur.

Q.Bayramov əmək fəaliyyətinə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ali təhsil aldıqdan sonra 15 ildən artıq bir müddət ərzində müxtəlif müəssisə və təşkilatlarda məsul rəhbər vəzifələrdə çalışmaqla başlamışdır. Şərəfli əmək fəaliyyətinin sonrakı illəri isə ölkədə audit sisteminin təşəkkülü və inkişafı ilə birbaşa bağlı olmuşdur: Q. Bayramov 1993-1996-cı illərdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin «Azəraudit» Mərkəzində auditor və şöbə rəisi vəzifələrində, 1996-cı ildən etibarən isə Azərbaycan Respublikası Auditorlar Palatasının məsul rəhbərlərindən biri kimi fəaliyyət göstərərək, ölkəmizdə auditin fəal qurucularından olmuşdur. Zəngin həyat təcrübəsi, idarəetmə bacarığı və nəcib insani keyfiyyətləri ölkənin audit sistemində işlərin düzgün qurulmasına, beynəlxalq audit təcrübəsinin tətbiqinin genişləndirilməsinə, Palata əməkdaşları və auditorlar arasında mehriban münasibətlərin bərqərar olmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Q.Bayramov rəsmiyyətlə səmimiyyəti, tələbkarlıqla qayğıkeşliyi bacarıqla uzlaşdırır və məhz bunun sayəsində Azərbaycan auditorları ailəsində daim mehriban münasibətlərin, sağlam işgüzarlıq mühitinin hökm sürməsinə şəxsi töhfəsini indi də verməkdədir. O, 1996-cı, 2001-ci və 2006-cı illərdə Auditorlar Palatasından auditor xidməti göstərilməsinə icazə verən lisenziyalar və «SMEC» şirkətindən «Maliyyə menecmenti» üzrə, 1997-ci ildə TASİS proqramı üzrə «Mühasibat uçotunun beynəlxalq prinsipləri və auditin texnikası», 1998-ci ildə Almaniyada «Müflisləşmənin konstruksiyası və texnikası», 2000-ci ildə Çində ASOSAI proqramı üzrə «Sosial müdafiənin auditi», 2002-ci ildə Avstriyada «Ali audit qurumlarının kənd təsərrüfatının auditində rolu», 2007-ci ildə Hollandiyada «Peşəkar təhsil üzrə ixtisasartırma» mövzularında kursları bitirməklə və 2014-cü ildə Honq-Konq Daxili Auditorlar İnstitutunun və 2015-ci ildə Avropa Mühasiblər və Auditorlar Federasiyasının təşkil etdiyi konfranslarda iştirak edərək, müvafiq beynəlxalq sertifikatlar almışdır.

Q.Bayramov Azərbaycanda auditin normativ hüquqi bazasının formalaşdırılması, metodik-texniki təminatı üzrə işlərdə də yaxından iştirak edir. Ali məktəblər üçün «Audit» dərs vəsaitinin, «Azərbaycanın Milli Audit Standartları»nın, «Audit. Qanunvericilik və normativ sənədlər» toplusunun, «Auditorların Müstəqillik Qaydaları»nın, «Auditorların Peşə Etikası Məcəlləsi»nin, «Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər)» və «Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)», habelə onlarca metodik vəsaitin – proqramların, təlimat və qaydaların, məqalə müəlliflərindən və çıxış edənlərdən biri kimi, ölkədə auditor xidmətinin təşkilinin təkmilləşdirilməsinə və tənzimlənməsinə yönəlmiş çoxlu maraqlı təkliflər irəli sürmüşdür. Məhz nümunəvi və işgüzar fəaliyyətinə görə Q.Bayramov dəfələrlə mükafatlara layiq görülmüşdür. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 15 ilik yubileyi münasibətilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin

Azərbaycanda auditor xidmətinin inkişafındakı xidmətlərinə görə bir qrup Palata əməkdaşlarının və üzvlərinin «Tərəqqi» medalı ilə təltif edilməsi ilə əlaqədar 2011-ci il 15 sentyabr tarixli Sərəncamında onun da xidmətləri dövlətimizin başçısı tərəfindən nəzərə alınmış və həmin Sərəncamda adının olması öz yaxınlarını sevindirdiyi kimi, Palatanın kollektivinin də böyük sevincinə səbəb olmuşdur. Son illərdə isə Q. Bayramov auditor xidmətinin inkişafındakı fəaliyyətinə görə Auditorlar Palatası Şurasının qərarına əsasən «Fəxri auditor» döş nişanı ilə təltif olunmuşdur. O, həmçinin auditorların və mühasiblərin beynəlxalq və regional qurumlarının keçirdiyi müxtəlif tədbirlərin dəfələrlə iştirakçısı olaraq, hər yerdə ölkəmizi ləyaqətlə təmsil etmiş, Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün səylərini əsirgəməmişdir. Əqidəsi möhkəm, mənəviyyatı saf, davranışı sadə, təvazökar və təmənnasız olan Qəşəm müəllim öz prinsipiallığı, vətəndaş mövqeyi, milli qeyrəti yüksək olan bir Azərbaycan övladıdır. O, dövlətinə, millətinə, xalqına və torpağına sadiq olmaqla, ulu öndərimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən başladığı əmək fəaliyyətindən daim fərəhlə danışır və bu gün həmin siyasətin uğurlu davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin yüksələn dinamika ilə artan iqtisadi reallıqlarına, uğurlarına daim sevinməklə bərabər, Yeni Azərbaycan Partiyasının üzvü kimi ictimai-siyasi proseslərdə də fəal iştirak edir.

Qəşəm müəllimin insani keyfiyyətləri onun iş, peşəkarlıq keyfiyyətlərinin birbaşa davamıdır: o, tələbkar istehsalat rəhbəri və mehriban, qayğıkeş yoldaşdır, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran xoşrəftar insan və xalqımıza xas olan gözəl ailə başçısıdır: 4 övladı və 1 nəvəsi vardır.

Ömür yolunun 70-ci pilləsini arxada qoyduğu bu yeni 2022-ci ilin mübarək başlanğıcında Q.Bayramovu – Azərbaycan auditorları ailəsinin sevimli üzvlərindən və ağsaqqallarından birini, milli audit sisteminin qurucuları sırasında layiqli yeri olan qayğıkeş və tələbkar iş yoldaşımızı, Azərbaycan Respublikası Auditorlar Palatasının Aparat rəhbərini Palatanın rəhbərliyi, kollektivi və üzvləri adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, şəxsi həyatda və əmək fəaliyyətində yeni-yeni uğurlar, bitib-tükənməyən enerji və sevincli anlar arzulayırıq.

Vahid NOVRUZOV,
Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor

Səbuhi GÜLMƏMMƏDOV,
Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500